SÖYLƏ, TANRI

Söylə, Tanrı, bu boş qalan yollardan,
Gecə vaxtı kimlər keçdi, kim qaldı?
Yarı-yardan hankı əllər ayırdı,
El içində ayrılığı kim saldı?
Min əməklə çiçəklənən yurdumuz,
Bir gecədə nə tez solub-saraldı?

Ellər köçüb, yurdlar oldu viranə,
Bu yerləri sürən, əkən harda bəs?
Xəzan olmuş meşələrin içindən,
Eşidilməz nə bir səda, nə bir səs...
Həyatımız, o gül açan hədiqə,
Sərab imiş, – yoxsa Tanrı, boş həvəs?

Şaxta düşdü, duman basdı dağları,
Ailələr matəmlərə büründü.
O yerdən ki, ilıq yellər əsirdi,
Tufan qopub, aclıq, ölüm göründü.
Gözəl qızlar, kiçik, körpə uşaqlar
Qapı-qapı dilənərək süründü...

Söylə, Tanrı, köçüb gedən ellərin,
Bu dünyada bir də üzü güləcək?
Gələcəyə şirin ümid bəsləyən
Könlümüz açacaqmı, gül-çiçək?
Viranədə susacaqmı bu bayquş,
Verəcəkmi bahar, dünyaya bəzək?

ATLILARIN

Atlıların keçdiyi yer
Tapdalandı, toza batdı.
Bir gecədə dəli şeytan
Yurdumuza matəm qatdı.

Gün parladı, payız günü,
Rəngi qızıl qana döndü.
Yer titrəyib, ev yıxıldı,
Ocaqdakı atəş söndü.

Evsiz, yurdsuz qalan ellər
Qürbət eldə süründülər.
Şən ürəkli qız gəlinlər,
Matəmlərə büründülər.

Bir çox igid, düşmən qıran,
"Bu dünyaya gəlib keçdi",
Bu dünyada qalanlar da:
"Karvan kimi qonub köçdü".

Məgər bunca qara günlər
Alınlara yazı oldu?
Dünya gülüb güllənərkən,
Bizim bağın gülü soldu.

Nədən dilin danıb şair
Yaltaqlanıb səna etdi?
Xəncər verib cəlladlara,
Qan içənə dua etdi?

YURD MAHNISI

Dilərəm bir payız günü,
Səhər doğsun qızıl günün,
Al bayrağın qanad açsın,
El-obalar tutsun dügün.

Dilərəm, ey gözəl yurdum,
Muradına xalqın yetsin,
Toz qonubdur saçlarına,
Silkin, silkin tozun getsin.

Çayların var dərya-dərya...
Nədən susuz qalsın ellər?
Sən nəsimin qaynağıykən
Nədən əssin qara yellər?

Artıq sənə yaraşmaz ki,
Palçıq evlər, torpaq cadda,
Nədəndir ki, bir saxsıya
Cəvahirin satdın yada?

Əsarətdə yaşadığın
Keçmişlərin qəflətidir,
Yetər zindan, yetər zəncir,
Zindanı yıx, zənciri qır!

SƏHƏNDƏ SARI

Səhər yoldan keçərkən,
Salam verdik Bərəyə.
Gün batarkən o axşam,
Çatdıq Qumlu dərəyə.

Uzaqlardan baxana
Kölgələr tək göründük.
"Qaranqu"ya çatarkən
Sərinliyə büründük.

İkinci gün dağ ardı,
Sönür ikən yorğun gün,
Obalara yanaşdıq,
Gördük vardır toy, düyün.

Güllər ətir saçırkən,
Sel suları duruldu.
Kilim, xalça döşənib,
Od, ocaqlar quruldu.

Güllənərkən bağçalar,
Bala dolur pətəklər.
Qız-gəlinlər oynarkən
Dalğalanar ətəklər.

Xoş-beş etdik ellərlə
İçdik sərin ayranlar.
Eşitdik ki, talayır
Obaları soltanlar...

ARAZIN SUYU

Arazın suyu qızıl
Parıldayır pırıl-pırıl.
Muğanlar güllənibdir,
Gəl gözəl, tamaşa qıl.

Göy atım, polad nallım,
Buraxma yolda qalım,
Dan yeri işıqlanır,
Yel əsir salxım-salxım.

Gül gəlir, reyhan gəlir,
Yar gəlir, canan gəlir.
Uzaqdan toz ucaldı,
Şimaldan karvan gəlir.

Ağaran dağ səsidir,
Qar yerin pərdəsidir.
Duyduğun o nəğmələr,
Şairin öz səsidir.

Hicranlı gündən bəri,
Getmədi eşq əsəri,
Sevgi bir zəncirdir ki,
Qırılmaz həlqələri.

Şirvandan quşlar qaçar,
Savalan üstə uçar.
O tayda, həm bu tayda,
Bir gündə güllər açar.

MƏNDƏN SALAM DEYİN GÖZƏL TƏBRİZƏ!

Peyğam

Şəfəqlərdə uçan axşam quşları,
Məndən salam deyin gözəl Təbrizə.
Qatar ilə gedən vətənə sarı,
Arxadaşlar! Bir baş vurun da bizə.

Açın mənim taxta, sınıq qapımı,
Görün əziz anam yoldan gəldimi?
Uşaqlarım görün, unutmuş qəmi?
Yoxsa ölüm, aclıq verib diz-dizə?

Buraxmayın evim nəmdən çürüsün;
Qoyun səba tozlarını süpürsün...
Qızıl günün nuru onu bürüsün
Toxunmayın bənövşəyə, nərgizə...

Duman çöküb üfüqləri qaratdı,
Mənə qürbət bir cəhənnəm yaratdı...
Xəzan yeli bağçamızı saratdı,
Daha nələr deyim? Dostlar mən sizə...

SÜRGÜN

Qovuldum ah, vətənimdən, elimdən,
İllər boyu nələr gördüm, nələr mən.
Daşdan-daşa dəydi başım qürbətdə,
Möhnət oldu yar-yoldaşım qürbətdə.
Tufan qopdu, pəncələşdim yellərlə,
Yağış yağdı, axıb getdim sellərlə!
Kölgələr tək dağı, daşı dolaşdım,
Ölümlərlə, qaranlıqla dalaşdım.
Haram oldu mənə baba ocağı,
Yurdum oldu karvansara bucağı.
Aclıq çəkib, korluq gördüm dünyada,
Keçdi şamım, söndü odum, ocağım.
Məndən sonra axmaz oldu bulağım.

Bəlalı ay hələ başa çatmadan,
Boz dağlara günəş işıq salmadan,
"Su başından" bir gün keçdim sübh çağı,
Gördüm sönüb xalqın odu, ocağı.
Qaçıb getdim o cəhənnəm odundan:
Gördüm bütün yerdə ölüm, atəş, qan!
Mənzil kəsib, getdim-getdim ikindi,
Nə çay gördüm, nə bağ, nə bir tikinti!
Gördüm yalnız kətdən iraq, bir ağa
Bir əsiri salıb qara bir dama.
Su istədim, cavab aldım qırmancla,
Ağzı qanlı ötüb getdim yamacla...
Gəzdim çölü, görmədim də heç kimi,
Yol üzərə düşdüm qara daş kimi!

Səhər məni bir incə səs oyatdı,
Ürəyimə yara vurub qanatdı.
Torpaq üstə nədən belə yatıbsan?
Hardan gəlib buralara çatıbsan?
Ağzın qanlı, üstün-başın tozludur!
Su istərsən? Gəl iç, sərin, buzludur.
Baxıb gördüm: alnı pullu gəlindir!

Bəstisinin suyu şirin, sərindir.
Eşitdimsə onun aydın, şən səsin
Gözlərində gördüm qəmin kölgəsin.
Dedim: "Gözəl, burax məni, get yana!
Əllərini bulaşdırma al qana...
Burax məni, kölgəlikdə dincəlim,
Sən get kəndə, hara desən mən gəlim."
Ağaclıqda qara bir dam göstərib,
Dedi: "Tez gəl, sən qəribsən, biz qərib..."

Palçıq bir ev, qaranlıqdır hər yanı!
Bir zindandır əzən, boğan insanı!
Yeri şehdir, divarları şeh, yıxıq,
Qapısından düşür yerə al işıq.
Kilim üstə oturmuşdur bir qarı,
Gözü yaşlı, rəngi uçuq sap-sarı.
Bir bucaqda köhnə beşik sallanır,
Hisli qara bir ocaqda od yanır.
Bahar kimi gəlin girir qapıdan!
Tutmuş əldə südlə dolu "Kumacdan",
Süfrə salıb, – qonaq yaxın gəl, deyir,
Mənə çörək verib, özü də yeyir...
– Neçə ev var? soruşuram bu kətdə?
– Axtarma sən, qonaq, adam bu kətdə...
Qorxudurdu ərbab bizi hər gecə,
Ölüm döyür qapımızı hər gecə!
Kök salıbdır, qonaq, şeytan bu kətdə!
Nə axtarır viran olan bu kətdə?

Ürəyimdə sözü yanğın varsa da,
Ayaqlarım yara, başmaq darsa da.
Dalımca ah ölgün kölgəm sürünür!
Qara ölüm mənə aydın görünür!
Yola düşüb yenə yoldan keçirəm,
Şoranlıqda acı sular içirəm.
Düşünürəm: böyük, geniş cahana,
Kim qom saldı, qərq elədi al qana?
Qəmlənirəm kəndli yeri sürəndə!

Boz,ağ, qara köşənləri görəndə...
Lüt ağacdan quşlar uçub gedərkən,
Payız günü dağdan qaş-göz edərkən.

Günəş qızıl alov saçır hər yana,
Lakin aləm ondan olmuş qəmxana.
Tükənməzdir bu dünyanın sərvəti,
Yox kəndlinin nə çörəyi, nə əti.
Kəndli haqqın istəyəndə, mülkədar
Divan tutar ona, həm də şər atar!
Bəslədiyi bağdan ona pay verməz,
İşlədərkən çörək verməz, çay verməz!
Vəhşi kimi kəndli yaşar nikbətdə,
Qovularkən canı çıxar qürbətdə.
Can yandırar bu ölkədə kim ona?
Həq danışsa, boyanar o al qana!

Savalanın odu, suyu qaynadır,
Baxsan üfüq açıq mavi aynadır!
Bu yer yaşıl bir cənnətdir el üçün,
Belə gözəl olmaz japon, hindi-Çin.
Bu yer bir az Ərdəbildən yuxarı,
Səreyindir, isti sular diyarı.
Bahar sonu dağlarında ərir qar,
Yay arası qızıl güllər açılar.
Bal arısı onda məkan salıbdır,
Bal rəngini kəhrəbadan alıbdır.
Cənnətlərdən sürgün olan gözəllər
Səreyində hər yay zühur edərlər.

Burax bayquş xarabada banlasın,
Xalqı düşmən söyüb-söyüb, danlasın.
Lakin zaman dəyişməzdir mədarın,
Qurumazdır qızıl qanı əhrarın.
Şair yenə şer yazar el üçün,
Qarlar ərir, çaylar üçün, sel üçün,
Boz buludlar günün önün tutammaz,
Özgə oymaq yurdumuzu udammaz.

MƏKTƏB XATİRƏLƏRİ

O günlər ki, gün buludu sökərdi,
Yel yollara badam gülü tökərdi,
Şair olan dəftərini bükərdi,
Mədrəsəyə, səhər erkən gedərdik,
Xan Nazimə təkrim, təzim edərdik.

Unutmaram, soyuq qışı, dağ, yayı,
Qızıl günü, saf ulduzu, ağ ayı.
Qacarlardan qalan hər bir misrayı...
Bizi ora Xiyabani köçürtdü,
Noğul, nabat verib, şərbət içirtdi.

Orda günəş pəncərəni bəzərdi,
Gözəllərin kölgələri gəzərdi,
Aynalardan şer, xəyal süzərdi,
Yazıq olsun o yaldızlı evlərə!
Lənət olsun onu pozan divlərə!

Xatırlaram mədrəsənin bağçasın,
Göy asmasın, çiçəklənən alçasın.
Gilasların, zərrin tağın, tağçasın,
"Ayeyi yas" oxuyanlar yadımda,
Xəyal toru toxuyanlar yadımda.

Cavanlıq ah, nə xoş günmüş, nə nemət,
Yadımdadır o məntiqlər və hikmət
Cami-cəmlə nakam olan gənc Rüfət
(Əski ədəb xərabəykən quru yer),
Tərvic etdi o ilk dəfə yeni şer.

O əkdiyi ağac el oymağında:
Çiçək açır bu gün Şiraz bağında,
Yeni şerin lap güllənən çağında:
Kimsə deməz Təqi Rüfət kim imiş?
Şer yazan dərin hikmət kim imiş?

Yeni şer bar verərkən xəzanda,
Xorasanda, İsfahanda, Tehranda.
Anmaz onu kimsə bütün İranda,
Kimsə ona mərmər türbə tikdirməz!
Torpağını qucaqlamaz yaşıl rəz!

Öylə şair yoxmuş Azər elində,
Cavahirmiş şeri türkü dilində.
Mərifət yox, yazıq Təbriz əhlində,
Bu gün zülmət bizim yurdu bürümüş!
Bir çox Rüfət torpaq içrə çürümüş!

Atam mənim bədəviymiş, köçəri,
Darvazadan bir gün girib içəri,
Bağdan sovub, atlanarkən, çəpəri,
Qızılsular məhləsində kök salmış,
Dəvəçidən gözəl, göyçək qız almış!

Anam mənim ortaboylu bir xanım,
Siyah saçlı, "Bayat" soylu bir xanım,
Deyir, gülür, haylı, huylu, bir xanım,
Zəncirəli güləcələr geyərdi,
"Nuş-afərin" nağılını deyərdi.

Hər söz başı xumar baxıb gülərdi,
Zülfün töküb başın asta əyərdi,
Qış gecəsi bayatılar söylərdi.
Ruha oxşar incə səsi var idi,
Könülündə şer həvəsi var idi!

Anadır ki, yardım edər şairə,
Naxış vurar soyuq, qara bir yerə.
İlham verən bəlkə odur Sahirə,
Anaların qucaqları cənnətdir,
Bu dünyada doğma ana nemətdir.

Bizim evin abirusu var idi,
Əlvan camlı urususu var idi,
Qızıl rəngli gözəl sosu var idi,
Keçən günlər, keçən günlər, xoş günlər!
Ömrümüzdən qopub düşən boş günlər...

Payız günü qirizantım açmışdı,
Sarı günəş solğun işıq saçmışdı,
Getmiş idi atam, yoxsa qaçmışdı?
Getdi, əfsus bir də geri dönmədi,
Ocağının odu lakin sönmədi.

Qurumadı bağçamızın ağacı,
Dörd qardaşlar qaldıq, təkcə bir bacı!
Gah güzəran şirin oldu, gah acı,
Hər bir günü günlər üstə qaladıq,
Yetimlikdə böyüyərək yaşadıq.

Mən özümdən dastan demək istəməm,
Qəza-qədər çərxi-fələk istəməm!
Düşmənlərdən yardım, dilək istəməm...
Bir şairəm, gecələri yatmayan,
Öz şerini qızıl pula satmayan.

Uşaqlıqda qara yerdə süründüm,
Cavanlıqda dərdi-qəmə büründüm,
Üfüqlərdə sınıq ay tək göründüm.
Kürdüstanda gah "mirzə"lik elədim,
İstambulda bəxtiyarlıq dilədim.

Mən yurdumu özgələrə satmadım,
Xələt alıb öz elimi atmadım,
Məxmər, ipək yataq üstə yatmadım,
Qədər mənə acı şərbət içirtdi,
Düşmən məni yad ellərə köçürtdü.

Bəxtiyarlıq təkbaşına olarmı?
Xalqın könlü sevincilə dolarmı?
Cəhənnəmdə açan güllər solarmı?
Yalnız əkən, yalnız biçən məhv olar?
Özü töküb, özü içən məhv olar!

Gəlin dostlar, biz yaxından danışaq!
Doğma şerin rəvacında çalışaq.
Elimizin atəşiylə alışaq...
Karvan keçər, yol üzərə kol qalar,
Bağçabandan çiçək qalar, gül qalar.

Zaman atdı pərdələri aradan,
Su kəsildi, işdən düşdü dəyirman.
El gördü ki, kim dost imiş, kim düşman?
Bir üzləri qaranlığa əyilmiş,
Onlar günəbaxan gülü deyilmiş!

Hürriyyətdən zahirdə dəm vuranlar,
Hay-küy salıb el-oymağı yoranlar.
Xalq yolunda duzaq, kələk quranlar...
Bu günədək durur şirin ordusu!
Gəlir zülmət tanrısının gur səsi!...

Günüm keçdi, oldu qızıl gülüm xar!
Şam sönməkdə, gecə soyuq, mənzil dar!
Bu bağlanan qapıları kim açar?
Şerin görüb, səni andım, şairim!
Vətəndaşı demə dandım, şairim!

GÜLMƏ

Nə qədər ağlasan ağla! Ki sənin ağlayışın,
Bu qaranlıq gecə içrə əriyib məhv olacaq,
Nə sənincin də, bu göylərdə, qızıl gün doğacaq...

Gecənin qəlbi qara bir daşa bənzər və göyün,
Pərdəyi-zülməti altında ərir ahü fəğan...
Sənin ancaq o fəğanındı bu könlümdə qalan!

Ummayardım bu səmadan, bu yaşıl çardağdan,
Sənə bu ölkədə qanun qara bir daxma verib,
Xana yıldızlı saraylar və yaşıl asma verib!

Yat bu viranədə, həsrətlərə qatlan... Gülmə!
Gülmə! Solsun ürəgində açılan lalələrin,
Öl! Ki sönsün o günəş rəngli o xoş zülfi-tərin...

Nə qədər ağlasan, ağla ki, sənin nalələrin
Bu qaranlıq gecənin qəlbi içində əriyir.
Kimsə sormaz: – Bu qaranlıqda, bu səs, nalə nədir?

GECƏ KEÇMİŞ YARIDAN

Gecə keçmiş yarıdan gözüm yolda... yollarda,
Bu qaranlıq gecədə nə gedən var, nə gələn.
Hava durğun, yel əsməz, pərdələri oynadan
O qələmkar pərdəyi – çapqın xəyal sənmisən!

Gecə keçmiş yarıdan... çırağımın şöləsi
Alaqaranlıqlarda bir ulduz tək sönmədə.
Görmədim uzaqdan sönük sarı bir ulduz
Taleyimin ulduzu üfüqlərə yenmədə...

Səhər uzaq, yol uzaq, tilsimli arzular,
Zülmətlərin içində tozlu qalmış, boş qalmış,
Karvan keçməz o yoldan, aydınlatmaz Ay onu,
Bir gecədir ki, ona ayrılıq kölgə salmış.

Sahir, yalnız deyilsən, mavi göyün altında,
Gecələri yatmayan və yollara göz dikən.
Bir çoxları sənin tək itib getdi bu yolda,
Sönüb keçən kölgə tək, Sahir, sən tək deyilsən.

Başa çatmış bu gecə, xoruz səsi ucalır,
Yolu duman bürümüş, nə gedən var, nə gələn!
Hava durğun, yel əsməz – pərdələri oynadan,
Bu ayrılıq çağında, ey nazənin, sənmisən.

SON SÖZ

Nə söyüd kölgəsi altında, nə çay nəzdində,
Nə yaşıl bağlar içində, məni basdırma, sakın!
Və nə mərmərdən olan böqədə həbs eylə məni,
Qoy göy altında yatım, bir dərədə, dağa yaxın...

Sürxabın qırmızı dağlar ətəyində böyüdüm,
Və onun ətri məni məst elədi gənclikdə...
Sirdaşımdır o qızıl dağ və ağacsız dərələr,
Görmüşük biz qara günlər, aclıq, birlikdə.

Salmadı sevgi mənə sayə bu aləmdə... inan,
Bir xəyal tək quru çöldə əridim hər axşam.
Mən günəşlərlə, işıqlarla danışdım, nə gərək,
Qara torpaqda qalam, kölgəli yerlərdə müdam?

Qoy göy altında yatım, boş dərədə, dağa yaxın,
Hər səhər bir quş oyatsın məni ahəngi ilə!
Sürxabın dağ ətəyində, burax, asudə yatım,
Əriyim mən qucağında, boyanım rəngilə...

YOLDAN KƏNAR

Yoldan kənar, düzənlikdə,
Bir az uzaq çay boyunca
Alaçıqlar qurulubdur,
Bəzi alçaq, bəzi uca.

Hər yer göy ot, hər yer çiçək,
Türkmən səhra burasıdır.
Bu yer zəngin olsa belə,
Fəlakətin yuvasıdır.

İgid türkmən uşaqları,
Otladarlar at, qara mal,
Evdə qalan qız, gəlinlər
Xalça toxur, güllü, xal-xal.

Yırtıq çadır altındakı
Qarı arvad çörək yayar.
Ömründəki gördükləri
Soltanları anar, sayar...

Uca dağlar ətəyindən
Coşar, axar, duru çaylar.
Türkmənlərin əməyilə,
Pambıq bitər, çiçək açar.

Nə qış anlar, nə yay anlar,
İsti gündə taxıl biçər.
Çıplaq gəzər, ayaq yalın,
Korluq görüb, aclıq çəkər.

Hər yer göy ot, hər yer çiçək,
Türkmən səhra burasıdır.
Əli xəmirli, qarnı ac,
İnsanların obasıdır...

KƏND MAHNILARI

Çıx dağ ardından qızıl gün,
Yurdsuz qalanı bir düşün!
Dünyanı qızdır, ərit qar,
Qoyma körpələr üşüsün!

Daşma çay! Daşma, bir çəkin,
Yol üstündə var bağ, əkin.
Daşma, kəndləri yıxma sən!
Xalq itirməsin əməyin.

Ey böyük Tanrı, ey pədər!
Qoy yurddan çıxsın tüstülər...
Söndürmə şamı, ocağı,
Ellər olmasın dərbədər.

Yolunu kəs düşmənin,
Burax günəşi, et aydın.
Bu yerləri gülləndirən
Min kişidir, min qadın.

NƏRGİZ

Nərgiz, uzun saçlı gözəl bir sona,
Bir gün dedi anasına: – Ay ana,
Qızlar bütün çay-çəmənə gedirlər,
Bağçalarda gəzib şənlik edirlər.
Bu gün hava günəşlidir, dağ-dərə
Boyanıbdır yaşıllığa, yeksərə.
İcazə ver, mən də gedim bağlara,
Onlar ilə mən də çıxım dağlara!
Gətirərəm, ana sənə, bircə bağ,
Dağ tərəsi, kəklikotu bir qucaq.
Dedi ana: – Sən də qızım, get, amma,
Tez gəl evə, dağda, daşda yubanma
Verirəmsə də rüxsət, sarı çiçəyim!
Bilməm nədən rüxsət vermir ürəyim.

O gün bahar bəzəmişdi çölləri,
Yağış suyu doldurmuşdu gülləri.
Dərələrdən axan duru bulaqlar,
Budaqlarda əsən təzə yarpaqlar.
Cəlb edərdi çöldə gəzən quşları,
Çağırardı xəlqi bağlara sarı.
O günədək görməmişdi dağ, dərə
Nərgiz kimi pəri gəlib, gül dərə...
Nərgiz çıxdı dağa, qızlardan uzaq,
Dağ tərəsi, lalə dərdi bir qucaq.
Lakin, bahar nikhət ilə məst ikən,
Batdı birdən ayağına bir tikan!
Aciz oldu yol getməkdən, yoruldu,
Bir qayanın üzərində oturdu.
Ayağından çıxararkən tikanı:
Gördü onu, uzaqlardan el xanı.
El xanı ki, yaşlı, başlı bir ağa,
Gəlmiş idi obasilə yaylağa,
O, altmış il yaşamışdı dünyada,

Salmamışdı qocalığın heç yada.
Qorxmayaraq boranlardan, sellərdən,
Hər il bir qız qaçırardı ellərdən.
O, Nərgizi görüb çıxdı özündən,
– İraq gözdən, anasının gözündən.
Bir aslan tək ova sarı yüyürdü,
Duvaqsız bir qıza tərəf at sürdü...
Xanı görən qız çıxmadı özündən,
Bir ceyran tək qaçdı aslan önündən...
Qaçdı, qaçdı, axır düşüb bayıldı.
Bir az sonra gözün açıb ayıldı.
Özün yaşıl bir çayırda gördü o...
Güllü, atlas bir çadırda gördü o...
Gördü xanı ayaq üstə dayanmış,
Gənclər kimi məxmərlərə boyanmış!
Örtmüş onun çürük başın boz dəri,
İşıldayır bir qurd kimi gözləri!
Zavallı qız yumdu gözün, inlədi,
Çarpan ürək sədasını dinlədi...
Anladı ki, əsir olub əllərdə,
Anasından uzaq-uzaq bir yerdə.
Çəkən yoxdur, artıq onun nazını,
Bir uçurum ona açıb ağzını.
Zəhərli bir ilan onu dişləyir!
Ürəyinə qədər ağrı işləyir...
Gördü, röya görən kimi nazənin
Bir qoca qurd ona dikmiş gözlərin!
Gördü bulud üfüqlərdən uzanır,
Uzaqlarda qanlı şimşəklər yanır.
Buludların pərdələri sökülür,
Guruldayıb hava, yağış tökülür.
Bərbad olur evi, yaşıl bostanı,
Yaralanıb qəlbi, axır al qanı.
Solmaqdadır artıq, qızıl gülləri,
Ölmüş ana, yoxdur onun əsəri...
Sevgilisi çoban ondan inciyib!
O, qalıbdır yad ellərdə tək, qərib!

Lakin, insan olur ikən giriftar,
Bəzən ürək ümid ilə nurlanar.
Zəncirlərə bağlı vəhşi canavar
Bəzən polad zəncirlərin də qırar.
O bilirdi, "darda qalan Gülüzar"
Onu qanun deyil, al qan qurtarar.

Axşam oldu, zülmət çökdü hər yerə,
Sakit oldu çayır, çəmən, dağ, dərə.
Uca dağlar dumanlarla büründü,
Bir işıqlı ulduz göydə göründü.
Əzan səsi obalardan ucaldı,
Anasını, Nərgiz yadına saldı...
Gördü ana evdə yalnız oturmuş,
Toxur lampa işığında bir naxış.
Lampa qanlı işıq salmış tavana,
Solğun kölgə kimi, qərib o ana.
Qızın bir az qoca gəldi gözünə,
Ölüm tozu qonmuş idi üzünə!
Dedi, mənim anam dəyildi qarı,
Nə üçün ağarıbdır qara saçları?
Gördü ki, göz qapaqları bükülür,
Göz yaşları naxış üstə tökülür.
Dedi: Ana, mənim üçün ağlama!
Məraq etmə, təslim olmam mən xana...
Gücüm çatsa onu həlak edərəm,
Dişlərimlə parçalayıb, didərəm...
Sındıraram bir vəhşi tək qəfəsi,
O məlunun qoymam çıxa nəfəsi...
Aydınladan zaman günəş otağı,
Gözlə məni ana, sabah, sübh çağı.
İki saat keçdi o şum gecədən,
Çaqqalların səsi qopdu meşədən.
Şamdan əldə bir qız girdi çadıra,
Dedi: – Səni kimlər salıbdır tora?
Haralısan? Nədir adın, qız sənin?
Heyif olsun, sənin kimi bir gəlin,

Yaraşarmı çürük, qoca bir xana?
Bir qan içən, dişi düşmüş heyvana...
Nərgiz baxdı qızın heyran üzünə,
Göz yaşları pərdə çəkdi gözünə.
Dedi: – Olan olub, keçən keçibdir,
Tale məni xana nəsib edibdir.
Burax şamı, get işinin dalınca,
Qoy ağlayım öz halıma doyunca...
Qız dedi ki: – Qonaq, məndən çəkinmə!
Tutulmuşam mən də bu dərd və qəmə.
Üç ildir ki, obalarda dəyərsiz,
Həm arvadam, qoca xana, həm kəniz!
Bu vicdansız, gözəl qızlar ovçusu,
Bu yolkəsən, karvan soyan, bu asi.
İndiyədək bir çox gəlin qaçırmış,
Bir çox quşun qol-qanadın o qırmış.
Səndən əvvəl məni qapmış, bu donqar,
Mən sonuncu ovam, dedi əsir qız.

Bu arada çöldə bir səs yayıldı,
Alaçığın pərdələri açıldı.
Xan göründü... Nərgiz çıxdı özündən,
Dönüb başı, şimşək çaxdı gözündən.
Bir bucağa pişik kimi sıxıldı,
Odlu gözlə, nəzər ətrafa qıldı...

Yarı gecə ulaşarkən köpəklər,
Dağ başından tülu edərkən qəmər,
Alaçıqda qopdu müdhiş fırtına!
Söndü şamdan, boyandı xan al qana.
Xırıltılı, tutqun bir səs ucaldı,
Bir az sonra sükut hər yeri aldı...
Ay ucalıb, saldı suya ağ ləkə,
Çıxdı alaçıqdan çölə bir kölgə.
Köpəklərin səsi çölü bürüdü,
O kölgə də yola sarı yüyürdü...

SEVGİLİM

Mən öz əski sevgilimi tanıram,
O Misirdə qızıllanmış heykəldir.
O vaxtilə bir insan tək fanikən,
İndi bu gün ölüm bilməz gözəldir.

Onun xumar, iri siyah gözündə,
Səhralarda yatan günün nuru var.
O, füsunkar, nadir gözəl çiçəkdir,
Ancaq Nilin kənarında gül açar.

Onun əyri, kaman kimi qaşları,
Gözəl qaşdan nümunəvi bir qaşdır,
O, sənətin telişli bir löhündə,
Qızıl rəngli, ağır qiymət bir daşdır.

Onun qalın dodağında atəşin,
Busələrin rəngi hələ solmamış,
Söndürməmiş isti, quru vahədə,
Onun güllü baharını qar və qış.

Neçə min il əvvəl, zümrüd qəsrdə,
Büsat qurub, şamdanları yaxarmış,
Zalım qeyzli bir fironu bəklərkən,
Pəncərəni açar, Nilə baxarmış.

Bilsəm hansı aşiq onun əlindən,
Qızıl camda içmiş eşqin badəsin,
Bilsəm hansı xoşbəxt aydın gecələr,
Uzaqlardan duymuş onun şən səsin...

Bilsəm hansı Yusif onun saçların,
Yelpik çalıb, yavaş-yavaş oxşayıb,
Bilsəm onun xülyaların, əsrarın,
Bilsəm kimlər o xülyada yaşayıb.

Mən öz əski sevgilimi tanıram,
O, qızıldan tökmə gözəl heykəldir!
Bir ulduzdur, əbədiyyət göyündə,
Şah əsərdir, həm də lətafəzəldir...

PAYIZIN İLK GÜNLƏRİ

Sarmaşıqlar titrərkən sərin sular başında,
Tək-tək düşər onların saralmış yarpaqları,
Hələ meşə yaşılkən, hələ hava ilıqkən,
Dağlar başın qar alır, çöllər olur sapsarı.

Hələ axşam olmadan, günəş dağda sönmədən,
Möveşlin buz kölgəsi dərələr içrə enir,
Yaşıl ipək geyimli Arıtutan quşların,
Hər günkü şən səsləri yay keçmədən qəmlənir.

Axar sular durulur, kölgələr də uzanır,
İlıq gündə yollardan keçən yorğun yolçular,
Bulaqların başında düşüncəli oturub,
Kölgələnən bağlara uzaqlardan baxarlar.

QAFQAZ YOLLARINDA

Bir parça

Sökülmüşdü dan yeri, çöl quşları ötürdü,
Turunc rəngli işıqlar dağlar başın öpürdü.
Yosun qoxan bir hava Araslardan əsirdi,
Qatar uzun yolları mənzil-mənzil kəsirdi.
Pəncərədən baxırdım yatar kimi hər yerə:
Ağ örpəkli dağlara, yaşıl geymiş çöllərə,
O pərdədə görünən xəyalımın kölgəsi,
Sanki mənə deyirdi: Bax, gözəllər ölkəsi!
Röyalarda gördüyün tilsimli pərdələr:
Bu güllənən yollarda bahar əli nəqş edər.
Bax! Gün doğur uzaqdan, azadlığın günəşi
Bu yolları sarıyan altun işıqlar deyil,
Azadlığın nurudur, şair, hörmətlə əyil!..
Alqışla bu günəşi, ulduzların sürurin,
Bu bucaqsız çölləri, şənləndirən rəhbərin,
Röyalarda gördüyün cənnət yolu bu yoldur,
Bu yol arzu yoluna çönüb gedən bir qoldur.

Bax teleqraf telində civildəşən quşlara,
Qara ipək pərlərə, mini-mini başlara,
Onlar sənə hər biri yol göstərir uzaqdan
Bilirlər ki, gəlirsən Xorasandan, Əraqdan,
Bilirlər ki, Təbrizdən yarı gecə keçmisən,
Səhəndin al camından sərin sular içmisən.

1945-Cİ İLDƏ

Söndü qanlı şəfəqlərin, keçdi sakit bir gecə,
Dəyişildi bir gecədə bu dünyanın səfhəsi?
Sədəf rəngli fəcr açıldı uzaqlardan, dənizdən,
Yerdən göyə qanadlandı səhər zəfər nəğməsi.
Qızıllanan sular içrə nilufərlər açıldı,
Oda yanan Berlin üstə al bayraqlar sancıldı.

Berlin düşdü, fəqət uzaq dənizlərdə yaponlar,
Yanar dağtək alov, atəş püskürürdü sularda.
Çinlilərin evin yıxıb xərmənini yaxarkən,
Səcdə qılıb padşaha, salmadılar heç yada!
İnsanların naləsini, qorxusunu Allahın
Boğmaq üçün gözlədilər fərmanını bir şahın.

Onların da dövranları çox sürmədi,
Bir gecə bir sehrli qüvvə ilə ürəkləri partladı.
Qızıl Ordu hər tərəfdən sərhədləri keçincə,
İngiltərə, Amerika adalara adladı.
(Günəş oğlu) imperator buludlarda qaraldı,
Ürəyində təzə açan qızıl güllər saraldı.

Söndü qanlı şəfəqlərin, 1945-ci il.
Sədəf rəngli fəcr açıldı səhralarda, dənizdə.
Qan ağlayan dünya güldü, açdı əməl gülləri,
Dünya xalqı sevinərkən, gülümsədi Təbriz də.
Azadlığın bayrağını Ərkin üstə taxdılar,
Yenə sönmüş məbədlərdə məşəlləri yaxdılar,
Sən doğdunsa qanlar içrə 1945-ci il.

BİR TOXUCU QIZA

Uçub rəngin qızım, səsin kallaşıb,
Kölgələnib gözəl, ala gözlərin,
Çıx günəşə, qaranlıqdır karxana,
Uzaqlardan eşitmirəm sözlərin.

Yetər qızım, toxuduğun xalçalar
Aynabəndli salonları süslədi.
Əməklərin, incə, solğun əllərin,
Bir çox zəngin ağaları bəslədi.

Nazik, ipək xalçaların gül açdı,
Otağında hər gəlinin, hər bəyin,
Bəzədinsə məclisləri də görüm,
Zavallı qız, bu dünyada var nəyin?

Nə vaxtadək ac qarınla işləyib,
Yorğun əllər sərf edəcək min əmək.
Eşidibsən bu məsəli babadan:
"Çılpaq gəzib, özgələri süsləmək."

Sən yaşında olan qızlar güllənir,
Nədən solmuş açan gülün tez sənin.
Məxmər geyib zənginlərin qızları
Nədən məxmər onlar üçün, bez sənin.

Rəngin uçub, dodaqların göyərib,
Gül, günəşlən, açsın solmuş güllərin.
Gəl, quş kimi qanad açıb uzaqlaş,
Qızıl günəş öpsün sarı tellərin.

BASQIN

Çən basıb dağları, sərindir havalar,
Payız zamanıdır köçüb obalar.
Dövranı gəlibdir qara buludun,
Sönübdür ocağı müqəddəs yurdun.
Daxmalar sakitdir, qapılar bağlı,
Qurulub çadırlar qaralı, ağlı.
Soltanın ordusu qızışsın deyə,
Meşələr odlayıb, tüstülər pəyə.
Quldurlar demək ki, fürsət tapmışlar,
Bir neçə qız, gəlin gecə qapmışlar.
Taxıllar alınıb, evlər talanıb,
Küçələrdə çoxlu cəmdək qalanıb.

Arvadlar yüyürür, ağlaşır qızlar,
Üfüqlər qaralır, yağır ağır qar.
Qapılar bağlanır, kəsilir hər səs,
Kənd çəkir qar içrə, ağır bir nəfəs.
Zəfərinən ordu aldı bu kəndi,
Yıxdı qalaları, düşmanı yendi.

Sakit hava, lakin bəslər fırtına,
Elləri istibdad gətirər cana.
Nə basqın, nə atəş, nə ölüm, nə qan,
Nə polad zəncirlər, nə qara zindan,
Nə süngü, nə xəncər, nə dar ağacı
Qanlı üsyanların degil əlacı.
Tapdalanan insan dünyayi yıxar,
Zülmün xirmənini atəşə yaxar.
O bir coşqun seldir, önü alınmaz,
O qızğın aslandır, əsir alınmaz.

AXŞAM ÇAĞIDIR

Cəvahir oldumsa,
Kimsə almadı,
Əridim, əridim,
İzim qalmadı.
Yoldaşlarım məni
yada salmadı,
Burax gedim, gözəl!
Axşam çağıdır.

Gün batır, kölgələr
yerdə sürünür,
Səhəndin ətəyi
sisə bürünür,
Uzaqlardan qızıl
Vətən görünür,
Burax gedim, gözəl!
Axşam çağıdır.

Ağaclar ardından
Gümüş ay çıxır,
Həsrətlər könlümü
yandırıb-yaxır.
Ayrılıq gecəsi
pərdədən baxır.
Burax gedim, gözəl!
Axşam çağıdır.

Dəyişdi dövran, ah,
dəyişdi dövran.
Sönən ocaqları
kimdir yandıran?
Kölgələr güclənir,
başlanır tufan.
Burax gedim, gözəl!
Axşam çağıdır.

ZAMANIN SİRRİ

Yenə göyərdi ot,
Sarı gül açdı.
Yükün çatdı, zaman
Gecəylən qaçdı.

Qovalarkən gecə
Hər gün gündüzü
Sürünən bir ömrün
Qalmadı izi.

Əski illər məni
Yurddan çıxartdı.
Min il gedən əvvəl
Karvana çatdı.

Pozmuş idi zaman
bir ilə yaxın,
Üzümün, gözümün,
Gözəl naxışın.

Özümü aynada
Tanımadım,
Kim imişəm mən, əcəba!
Nə imiş adım?

Bağlar dedi: – Şair,
Nə tez qocaldın.
Dağlar dedi: – Yazıq,
Pis günə qaldın.

Nə üçün solubsan,
soruşur günəş,
Bomboz olubsan, bax! –
deyirdi atəş.

Yüngüllətdi məni
o qədər fələk.
Tərpədir yellər
Saman çöpü tək.

Qızdırmayır məni
Nə od, nə ocaq,
Sarı işıq kimi
Görünür çıraq.

SAZAQ ƏSDİ

Sazaq əsdi dağdan, hava bulandı,
Xəzan oldu bağlar, yarpaq saraldı.
Sönsə də ellərin yanar çırağı,
Alovlu günəşə bax, sönməz qaldı.

Şərqdən qopan əvvəl ölüm tufanı,
Dağa, daşa çırpdı, dağıldı, getdi.
Sellərin aşdığı, daşdığı yerdə,
Yenə lalə açdı, göy otlar bitdi.

Quruca çöllərdə avara gəzdim,
Batlaqlara cumdum, palçığa batdım.
Aç qapını ana, yenə də gəldim
Dağları aşaraq, Vətənə çatdım.

XƏZANLAR

Xəzan çağı
Qızıl günəş odlanıbdır,
Ağacların yarpaqları
Min bir rəngə boyanıbdır...
Hər yarpağın bir rəngi var,
Sevda rəngi,
Həsrət rəngi,
Tutqun, tozlu,
Qürbət rəngi...
Xəzan çağı, yel əsərkən
Yağır yarpaq,
Ölgün yarpaq.
Qalanıbdır, qalaq-qalaq.
Yollar uzaq, göllər dərin,
Nəsim əsir sərin-sərin.
Dağlar bizim, bağlar bizim,
Yeriyərkən yarpaq üstə
Qalmaz izin...
Gün yandırmaz,
Son bahardır,
Sanki ağac yarpaqları,
Lacivərddi bir mətndə
Nəqqaşlardır.
Bir çox xəzan gəlib, keçdi...
Bir çox karvan qonub köçdü.
Bir xəzanda
yetim qaldıq.
Bir xəzanda
Sevdalandıq.
Bir xəzanda
Alovlandıq.
Ən nəhayət,
Xülyaların havasından
Qanadlandıq.

Bir xəzanda
Parlaq qızıl günəş doğdu.
Bir xəzanda
Bulud gəlib günü boğdu...
Anlayarkən xəzanları
zaman bizi qovaladı...
Gəldi zaman, keçdi zaman...
Ayrı düşdük yurdumuzdan.
Həsrət qaldıq
Sərin-sərin bulaqlara
Gül-çiçəkli otlaqlara.
Zaman keçdi, biz quruduq
Susuz qalan ağaclar tək.
Təravətdən saldı bizi,
Bilməm qürbət?
Yoxsa fələk?

ARZU

İstərəm qəmli və tufanlı gecə yolçulara
Bir fanus tək, ya da qütb ulduzu tək rəhbər olam.
İstərəm yay günü çöllərdə axar bir su olub,
Dum-duru göz yaşı tək yolda çuxur içrə dolam.
İstərəm nəqş və nigarım qala, şerim oxuna
İstərəm bir sizi, həsrət tək ürəklərdə qalam.
Unudursa məni el, çəkməsə tarix adımı
İstərəm ay təki yurd üstə gecə şövq salam.

HƏYATDIR AXAR ÇEŞMƏ

Həyatdır axar çeşmə,
Yetər ah, dastan demə!
Keçən gün, keçən gecə
Bir daha dönməz geri.

Yuxularkən köhnə şəhər,
Parlarkən göydə ülkər,
Oxurkən susərilər,
An məni, gözəl pəri!

Səhərin rüzgarında.
Dəyirman sularında,
Təbrizin baharında,
Rəngim var, sözüm vardır.

Məxməri çiçəyində,
Ellərin ürəyində,
Fərşlərin ilməyində
Naxışım, izim vardır.

Məhtabın çırağına,
Sərxabın al dağına,
Ol kəklik bulağına,
Çoxdandı həsrətəm mən.

Ellərə alqış olsun,
Düşmənə qarğış olsun!
Qar yağsın, yağış olsun,
Güllənsin bizim Vətən!

Yollardır çala-çula,
Sağdan dön çapaq sola.
O gedər-gəlməz yola,
Dikmə göz, yetər gözəl!

Dağların başında qar,
Səfərdə hadisə var,
Yol çətin, keçidlər dar,
Hələ at keçər, gözəl!..

AZƏRBAYCANIN GƏNC YAZIÇISI NAMURAD FRİDUN İBRAHİMİYƏ

İldönümün tutan yoxdu,
Yoxdur səni yada salan.
Qəbrin üstə göy ot bitdi,
Ey Namurad, yazıq cavan.
Asıldığın gündən bəri,
Matəmlidir göy "Gülüstan!"

Dolaşarkən şimal yeli,
Yurdun qızıl bayrağında,
Ellər ilə od yandırdın,
Babəkilər ocağında.
Lakin əfsus, son işıq tək,
Söndün həyat çırağında.

Nə ellərin məktəbində
Kitabını açan oldu,
Nə yazdığın qızıl yazı
Rəvac tapıb dastan oldu.
Lakin sanma bu əsrdə
Hər şey bitib nisyan oldu.

Günün yeddi rəngi ərir
"Qızıl üzən" sularında.
Sənin izin, kölgən qalmış
Astaranın baharında.
Faşizm hələ hökm sürür
Qızıl odlar diyarında.

Məktəblərdə ana dilin
Oxutduran ustad yoxdur.
Ordu-ordu oymaqlarda
Əsir çoxdur, azad yoxdur.
Keçib çıraq, sönüb ocaq,
Xaraba çox, abad yoxdu...

Qaranlıqdır, tikanlıqdır
Həramilər pusqu qurub.
"Bağmeşə"nin bağlarını
Toz basıbdır, afət vurub.
Azadlığın gəmisində
Kaftar durub, şeytan durub.

Dalğalanır fəzamızda
Zindanların iniltisi.
Eşidilir səhər-axşam
Radiodan düşmən səsi.
Bir çox hərzə ot gövərib,
Qanad gərib yol iblisi...

Getdim baba diyarına
Gördüm bayquş fikrə dalıb.
Qəbrin üstə axşamçağı
Payız günü şəfəq salıb.
Səndən, yoldaş, xatirələr,
Dərin sözlər canda qalıb.

Əzrailə qılınc çəksəm,
Yenə bir gün öləcəyəm.
Çıraq kimi ya bir axşam,
Ya bir səhər sönəcəyəm.
Bilirəm ki, yer altında
Toz-torpağa dönəcəyəm.

Bunla belə əminəm ki,
Nur zülməti boğacaqdır.
Ən nəhayət, üfüqlərdən
Qızıl günəş doğacaqdır.
Daş nə qədər bərk olsa da,
İsti, soyuq oyacaqdır.

QORXMA!

Qorxma, bu mavi göy altında yanan günəşin,
Və üfüqlərdə gülən al şəfəqin sönməyəcək.
İlk baharına açacaq gül, ötəcək bülbüllər,
Dünyamız bir də bu aləmdə xəzan görməyəcək.

Dünya durduqca Səhəndin uca bürcündə yanan,
Ol gümüş rəngli ay yolları aydınlaşdıracaq,
Axacaq nəhrlərin, həm açacaq lalələrin,
Bir də evlərdə inan sönməyəcək od və ocaq.

Ey mənim şanlı elim, həmvətənim, al günəşim,
Ayna tək parlaq üfüq, dərya təkin çərx əsir.
Ey qadınlar, analar, bircə açın pəncərəni,
Sübh açılmaqdadı, sübhün yeli dağlardan əsir...

QOVALA DÜŞMANLARI!

Qaranlıq içrə qardaşam,
Hələ gizlənibdir qızıl gün.
Bax, boğsa da səni qaranlıq,
Qırmızı səhəri bir düşün.

Zəmanənin tutqun səhəri
Bizlərə deyir ki, – Gəl bəri.
Yetər daxmalarda çəkdiyin
Sıxıntılar, dərdlər nə üçün?
Ayaqlarında var zəncirlər,
Nədəndir olubsan dərbədər?

Sənin əməyinlə bəzənir
Əlvan ipəklərlə lalәzar.
Udduğun qanlardır ki, vəzir
Sarayında qızıl gül açar...
Cənnət bağ içrə tikdiyin
Saraylarda yatar hər zəngin.
Tozlu, yırtıq çadır çöllərdə
Ağız açıb səni çağırar.
Nəsim zənginləri oxşarkən
Ağ yel çadırını qabardar.
Yetər o tutduğun ol qan, qurum,
Qazdığın quyu bir uçurum.
Göy sular üstündə çırpınan
Sənsən polad kimi yaradan.
Sənin udduğun toz, torpaqlar...
Qızıl, gümüş olub toplanar...
Gecə sona çatıb, gündüzdür,
Həqayıq yolu bax, düm-düzdür...
Qursanları yurddan çıxardıb,
Qovala, qovala, suya tök,
Alqışlasın səni mavi göy.

VƏTƏNİN MATƏMİNDƏ

Qısa bir zamanda bahar tək
Çiçəklənən gözəl yurdumuz
Soyuq qəbristana bənzədi,
Dağıldı duman tək ordumuz.
Gün çıxandan qara yel əsdi,
Yıxıldı qurğumuz, elimiz,
Odlandı, talandı Xoy, Təbriz,
Urmi axar sular diyarı,
Gülü solub, rəngi saraldı,
Hər gün, hər gecə qapımızdan
Aclıq, ölüm girdi içəri.
Heç unudularmı o günlər?
Cənuba yollanan sürgünlər
Kim unuda bilər o qışda?
Axşamadək qarda, yağışda,
Qara zindanların önündə
Yerə sərilən arvadları.
Görürkən qırmızı gün söndü,
İmperializm gülüb sevindi...
Ol dişləri düşmüş kaftarın
Gözü evlilərə sataşdı...
İmperializm bizə nə verdi?
– Fəlakət, aclıq və qara gün.
Qan izlərinə bax, bir düşün,
Tanı düşmənini, ilanı!
Sənin əməyinlə bəslənmiş
"Parazit"in əti və qanı...
Günəş görə bilməz bayquş,
Qızıl-çin köpəyi qudurtmuş.
O əmiri, satanları
Qanadı altına almışdır...
Lakin yandırmaqdan nə çıxar?
Qızıl qurğuları kim yıxar?
Qaranlıqdan çıxan günəşlər

Onun qamaşdırar gözünü.
O yaralı canavar kimi
Daşdan-daşa çırpar özünü.
Burax çırpsın, çırpsın şeytan,
Qoy məhv olsun, onu tutmuş qan...

QANLI PAYIZ

Buludlar qalaq-qalaq,
Tökülər quru yarpaq.
Payızdır: "Qanlı payız"
El köçüb, sönüb ocaq.

Su axmaz zinə-zinə,
Qan axır su yerinə.
Ellərə divan tutur,
Amansız düşman yenə.

Ortanı zülmət basdı,
Evlərdə indi yasdı.
Dan yeri ağararkən
Cəllad beş igid asdı.

Göydəkən rəbi-qadir,
"Kölgəsi yerdə gəzir",
Əfiyun dərvişlərə
Azəri olmuş əsir.

Tozludur Təbriz yolu,
Şeytanla yurdlar dolu.
Zəncirlər dəmirdənsə,
Poladdı elin qolu.

Desə də tufan qan-qan,
Çəkinmə qaranlıqdan!
Dur, qızıl məşəl yandır,
Görsə od, qaçar şeytan.

ŞAİR ŞƏHRİYARA

Məscidə gedərkən

Dam-divarı qar hörübdür
"Tfu deyirsən, göydə donur".
Civildəşən ağ sərçələr
Lüt ağaca gəlib qonur.

Dünən axşam bazarçada
Başmaqlarım islanmışdı.
Kürsü altında qoymuş anam
Başmaqlarım dönmüş qaxa.

Külək qarı çırpır üzə
Gözümdən yaş axa-axa.
Ağır qarı yara-yara
Yollanıram məscidə mən...

Əynim tənik, qarnım yarım,
Qış çağı da demək Tanrım
Yaddan çıxarmışdır məni.
İsti-soyuq olmuş əlim,
Ayaqlarım... ağlayıram.
Qan şoruldur əllərimdən...

Səssiz, qarlı qəbristanda
Alaca bir köpək ulur...
Külək məscid uşaqların
Canavar tək bir-bir udur.
Yol uzanır, yoxdur dibi,
Budur, cansız "Mir Həbibi"
"Qurban xak pa" gözlüyür,
"Minnət xədayra" gözlüyür.

HƏYATIN YÜKÜ AĞIRDIR, AĞIR

Qaranlıq çökübdür, qar, yağış yağır
Həyatın yükü ah, ağırdır, ağır.
Uzaqda lampalar, qanla dolu göz
Qalmamış kənddə at, nə öküz.
Arabaya bağla, özünü igid
Çırpınan ürəyin səsini eşit.
Qara palçıq dizdən, yol üz yuxarı
Həyatın yükün çək işığa sarı.

Ucsuz və bucaqsız
Dəmirçi kürəsi tək yanan bir çöl.
Çək həyatın yükün, ölürsən də öl!
Şirin su ardınca düşsən ayaqdan
Demərəm ki, gümüş səraba aldan.

Burası boz şəhər, xanın baş kəndi
Tunc qapısı qəsrin bağlıdır indi.
Önündə keşikçi gəzir xəyal tək.
Tökür yarpaqları yel ətək-ətək.
Gecə sükutunda sular şırıldır
Burası rəmzli, əski diyardır.
Sanma ki, fələkdən köçmüş qızıl gün
Üfüqdə qızaran tüluu düşün.

Mərmərdən bir saray, zümrüddən bağ
Ay işığı kimi parlayan çıraq.
Ətirli otaqda pərdələr ardı
Minyətürə bənzər bir gözəl vardı.
Billur bardağda al şərab parlar
Buranın mövsümü bahardır, bahar.
Sarayı qurmuşdur sanki kainat
Sarayda güllənər başqa bir həyat.
Cənnəti axtaran buradan keçsin,
Həyat bulağından sərin su içsin.

Qaranlıq çökübdür, qar, yağış yağır
Ellərin dərdi ah, ağırdır, ağır.
Dilənir şəhərdə xəyal tək gəzən,
Yurdunu buraxıb Tehrana gələn.
Daşlardan, palçıqdan yuva tikiblər
Arı tək uşaqlar pöhrə verirlər.
Yenə də arvadlar ikicanlıdır
Keçərsə bu yoldan həzrəti xəzri
Görər ki, quruyub həyat çeşməsi
Pərdələrdən qalxır ölümün səsi.

Həyatın yükü ah, ağırdır, ağır
Qaranlıqda yatan elləri çağır.
Buludlarda qızıl ildırım çaxır,
Dağlardan dərəyə sel-sular axır
Sellər qudurmuşsa dağ kimi durun!
Körpü yıxılmışsa, körpülər qurun!

UĞULDAYIR DƏLİ YELLƏR

Uğuldayır dəli yellər, budur
Çamur damda.
Nə köz qalıbdı ocaqda
Yağışlı axşamda.
Kədərli xatirələrdi
Kitab-kitab qalanıb
Bağım xəzan olaraq
Yurd, yuvam, evim talanıb.
Buraxdılar qara yel əsdi
Şərqdən bir gün.
Nə qoydular evimə, qış zamanı
Gün düşsün...
Nə qoydular ki, əkin yaz çağında
Tellənsin.
Nə qoydular qəzəlin son baharı
güllənsin.
Xarabazar elədi od diyarını
əfsus.
Quru və isti diyardan axıb
Gələn ordu.
Elim əsir olaraq, oymağım köçüb
getdi.
Və bu nankor ağalar
Satdılar gözəl yurdu.

ŞAİR SÜLEYMAN RÜSTƏMƏ

Burada telqrafın
Qırılıb çoxdan teli.
Əsərkən "Bağmeşə"dən
Ey sərin səba yeli.

Güzar qıl Qarabağa
Bakıya, həm Şirvana.
Yetir el pəyamını
O əziz Süleymana.

Möhtəşəm ol şairə,
Bizlərdən salam söylə.
Deynən ki, dinləyirik
"Şairin səsin" hələ.

Ey əziz yurd qardaşım,
Dilədin qara zindan
Yıxılsın təməlindən
Dilədin bizim ölkə
Güllənib, olsun gülşən.

Lakin ey əziz qardaş,
Bu səfər güzar etsən
Təbrizdən, Mərağadan
Hər yerdə görəcəksən
"Günəşsiz, aysız zindan".

Hasara salmış iblis
Şəfəqli ölkəmizi.
Şeytanlar qılınclayır
Yollarda kölgəmizi.

Bu tayda bir çox yurdlar
Yıxılmış... sönmüş ocaq.

Odlanmış yürüşlərdə
Kitablar qalaq-qalaq.

Lakin hər sönən odun
Kül altı közləri var.
"Obalı şair"lərin
Sazları, sözləri var.

Möhtəşəm şair, aman!
Sözümdən məhzun olma!
Dinlərkən qüssəmizi
Qəmlənib, dolğun olma!

Bir zaman şimallardan
Bizlərə qonaq gəldin.
Zülməti yara-yara
Əlində çıraq gəldin.

Gecəmiz qaranlıqsa
Gözümüz səhərdədir.
Fələkdən ümid üzüb
Arzumuz bu yerdədir.

OTUR EVDƏ

Otur evdə, bürün kürkə
Dağda vardı boran, şair.
Qarabağda xalan varmış,
Xalan sənə qurban, şair.

İşıq gördün o taylarda
Sən də sönük çıraq yaxdın.
Gündən yanan zəmi gördün
Bulud olub, şimşək çaxdın.

Bilirsən ki, yurdumuzda
Qıvrılıbdı yad əjdaha.
Nədən bizim şəhri hərif,
"Bəla gərdən" etdin şaha?

İllər boyu yurddan uzaq
Azdırmışdı şeytan səni.
Ey yaramaz, səni duydum,
Girov qoydun gər vətəni.

O taylılar sazın döydü
Türk dilində sözün gördü.
Bu taydakı ellər isə
Aydın "iki üzün" gördü.

Duydum təbin güllənibdir,
Bizim dildə qoşman boldu.
Ağlayaraq demisən ki:
"Göz yaşımdan Araz doldu".

Hansı Araz? O Araz ki,
Qərq olubdu qızıl qanda.
O Araz ki, qan ağlamış
Fridunlar asılanda.

Get, aşnalıq qatma artıq
Yad sənindir, sən də yadın.
Yaslı payız üz verirkən
Cəlladları alqışladın.

Burax aşsın, daşsın Araz,
Sən get şaha mədhiyyə yaz.
El düşmanı, dil düşmanı
Gəl aldatma el-obanı!

SEVGİDİ

Şəbnəmlərlə boyalı ağ gül dərdim bir yığın,
Gördüm güldə ətrin var, şəbnəmlərdə işığın.

Duydum sənin səsini səhər əsən nəsimdə,
Səndə olan atəşdən ruhumda var mənim də.

Röyalarda parıldar gecə gözəl gözlərin,
Tozlu zaman yolundan getməz ayaq izlərin.

"Yaradıcı" nəqşində səndən ilham almışdır,
Pərdəsində baharın rəngləri qalmışdır.

Gözəlliyi dünyada sənsən gözəl yaradan,
Qəndillərdə şöləsən, məbədlərdə sicurdan.

Əfsanələr dövründən səndən qalmış heykəllər,
Səni sevən şairlər hələ gəzər dərbədər.

Sən bir nuri əzəlsən, göydən yerə əyləndin,
İlk əsrarın yolundan; gələn yolçu sən idin.

GÜL DƏMƏTİ

Təbrizin bağlarından,
Dərmişəm ətək-ətək.
Həsrətlə, iştiyaqla,
Qırmızı, sarı çiçək.

"Yam"dakı çeşmələrdən,
Sərin su içən olsa,
Günəşli, isti gündə,
Arazdan keçən olsa.

Dərdigim o gülləri,
Ay çıxan zaman gətir.
Vurğunun və Xəndanın
Qəbrinə nisar yetir.

PAYIZ

Payız çatıb, bostanları pozublar,
Qızıl suya boyanıbdır göy çinar.
Sel suları yenə axır dağlardan,
Quşlar köçüb gedib bizim bağlardan.
Eşidərkən puldan, işdən var xəbər,
Ac qalanlar şəhərlərə köçürlər.
Şəhərdəki aclıq çəkən az deyil,
İndidəki isti hava, yaz deyil.
Məscidlərdə yatar gecə qonaqlar
Hər gecədə ölür bir çox uşaqlar.
Heydərbaba, bax bağlarda yel əsir,
Meşələrdə quduz qurdlar yol kəsir.
Palçıq evlər bir-birinə sıxılıb,
Bir parası yeldən, seldən yıxılıb.
Evlər susmuş, soyuyubdur od ocaq.
Yenə haçan hava, rüzgar olacaq?
Lakin "baba" hava yenə qızışar,
Yaşıllanar qara çəmən, göy çinar.
Quşlar yenə yurdumuza dönərlər,
Yad ellərdə qara günlər görənlər.
Yenə günəş işıq salar sulara,
Buğda bitər, gələr ağaclar bara.
Aydın şəfəq gülər bizim ölkəyə
Dastan olar hisli daxma, həm pəyə.
Onda sən də uzaqlardan sübh erkən
Çiçəklənmiş "Xoşginab"ı görərsən.
Öz yerində buğda, pambıq əkəni,
Bizlər üçün qızıl xirmən döyəni.
Qara günün ömrü "baba", az olar,
Zülmün odu sönüb, gülü tez solar.
Onda sənə mən qoşmaca qoşaram,
Axar çay tək həm aşaram, coşaram.

QIŞ

Qar yağaraq dünya açmış ağ çiçək
Nə qoyun var otlaqlarda, nə inək.
Dəyirmanı axar sular fırladır,
Suyun səsi ağacları yuxladır.
İçərisi dəyirmanın tutqundur,
Hər yer ağdır, tavan, taxça, dam undur.
Qızıl günəş yanırsa da bacada
Sınıq lampa tüstüləyir taxcada.
Bir bucaqda cındır yataq salıblar.
İki körpə kor yuxuya dalıblar.
Onlar tozlu dəyirmanda doğulub,
Gül açmadan öz qınında boğulub.
Kiçiklikdə olursalar dərbədər,
Böyüyərək bir gün... gedərlər.
Şorba yeyib, bit içində yaşarlar
Dağı, daşı aşarlar.
Keşik çəkib sarayların önündə,
Cavanlıqda yaşarlar it kökündə...
Qayıdarkən kəndə yeri əkərlər,
Meşələrdən quru odun çəkərlər.
Arvadların qoruyarkən ərbabdan
Üzlərinə ağız açar kor zindan.

YAZ

"Heydərbaba!" yaz günəşi parlayır,
Gülə dolmuş yaşıl bağlar, göy çayır.
Quşlar oxur çiçəklənmiş bağlarda,
Sürü otlur dərələrdə, dağlarda.
Su səsindən çöldə qulaq tutulur
İlıq külək dam-bacanı qurudur.
Yenə kotan işə düşmüş tarlada,
Güllü tuman, yaylıq uçur havada.
Nə el üçün, nə yurd üçün, şan üçün
Arvad, kişi çalışırlar xan üçün.
"Heydərbaba", kəndli xana borcludur,
Bilirsən ki, borclu namərd quludur.
Tüstülərsə onun bu gün ocağı,
Borca gedər sabah qabı, qacağı.
Zülm əlindən məgər şirin su içər?
Qara günlər məgər ondan vaz keçər?
O zaman ki, duman dağı bürüyər
Palçıq damda onun canı çürüyər.

YAY

İsti düşmüş, yaydır günlər uzanıb,
Su azalıb, çayır çəmənlər yanıb.
Gün qızardıb əkinləri, qurudub,
Bostançılar çöldə alaçıq qurub.
Biçin vaxtı gəlib çatıb indicə,
Xırman döymək gəlir biçin ardınca.
Hovla qoşar baba, uşaq dən yeyər,
Yorğun, tənbəl öküzləri o söyər.
Günəş onu yay günündə qovurar,
Yel əsərkən xırmanları sovurar.
Xəlbirləyər ana dəni, o sələr
Toz içində yuvarlanar körpələr.
Nemət içrə bugün acı çay içər,
Qış günündə korluq və aclıq çəkər.
Ana sevinər, uşaqları boy atar,
Baba ölüb qara torpaqda yatar.
Palçıq koma kölgə salar özgiyə,
Yəni nəsil xidmət edər xan, bəyə.
Yay da bitər, yenə günlər qısalar,
Bostançının bağı ona verməz bar.
Taxıl dolar anbarına ərbabın
Tazələrkən malakeşi arvadın.
Fal açaraq deyər sellər axacaq,
Ac kəndlilər yurd-yuvasız qalacaq.
Güllənəcək xanın gözəl sarayı,
Bəy alacaq bu il "Dimgəsər payı".
Uşaqları çiçək kəsib biçəcək.
Bu il bir çox tazə gəlin öləcək.
Mal qırılıb, bahalaşar daş kələm,
"Sam" əsəcək çöldən... ələləm.

ÇİNİ FİNCAN

Çini fincan, sənin sədəf rəngində
Qızıllanan səhərlərin şövqü var.
Sənin nəqş və nigarında xəyalın,
Tilsimli, yaşıl bağı gül açar.

Söylə görüm, hankı əllər çəkibdir
Bir sarışın, gül üzlünün nəqşini?
Hankı qələm qızıl rəngə boyayıb
Bir şairə layiq qılıbdır səni?

Çini fincan, o kəhrəba gözəllik,
Hankı günün, hankı ayın nurudur?
Gur saçların gül üzünə dağıdan,
Pərimidir, söylə, yoxsa huridir?

Çini fincan, çini fincan söndürmə,
Üfüqündə yanan o al rəngləri.
Çini fincan, təbah olma, qırılma
Təbah olur yoxsa hünər əsəri?

CİĞATI

Bir yaz günü kənarından keçdim mən,
Gülab təkin sularından içdim mən.
Bir son bahar diyarından köçdüm mən,
Gözəlləri gözəllədən Ciğatı.

Meşələrin gəzdim, gördüm səfasın,
Oxuyarkən "Emil Zola" naməsin
"Çar oymağın" duydum səsin, sədasın
Qruslardan axıb gələn Ciğatı.

Qalmadı ah, o diyarda bu səfər,
Nə özümdən, nə sözümdən bir əsər.
Yenə haman "Kak Mirzə"yəm, dərbədər
Ətəklərin yerə sərən Ciğatı.

Deməm bu gün bu sözlərin yeridi,
Sanma "Mirzə" bir sümük, bir dəridi.
Ətim, yağım "ağalıq"da əridi,
Qan-yaş tökdüm, ətək-ətək Ciğatı.

Qaranquşlar yenə gəlir baharda
Yavan çörək yeyir çoban naharda.
Kimlər ölmüş, kimlər qalmış diyarda?
Söylə görüm, mavi örpək, Ciğatı.

Durur yenə bir qapılı daxmalar?
Yarı gecə yenə qoyub qaçan var?
Gəlir səhər su doldursun gözəl yar?
Həyətlərdə vardır pətək, Ciğatı?

Bəzəyisən köhnə, əski diyarın,
Azalmasın görüm duru suların.
Silmə, aman, yarın nəqş və nigarın,
Çalxalanma, bircə utan, Ciğatı.

Bir də görüm çiçəklənir göy çəmən!
Nə haldadır o şəbnəmli yasəmən.
Ondan bir səs, ya bir ətir gətirsən
Son baharlar qan ağlayan, Ciğatı.

O günlər ki, şuğum bütün rəngiylə
Gözlərinin aynasında düşərdi.
Düşünərdi, şirin-şirin gülərdi,
"Kak Mirzə"də pullu, zəngin bir ərdi?

O günlərdən keçmiş artıq çox zaman
Batan gündü, üfüqlərdə hər bir an.
Gecə köçüb, gündüz qonan karvan.

Geri dönməz, qurmaz qızıl ocağın,
İşıldatmaz, sarışın ay çırağın
Öpməz birdən günəş yayın yanağın.

YURD MAHNISI

Bir yerdə savaş qopsa da,
Bir yerdə barışdı.
Bax Astarada güllü bahar,
Xoyda da qışdı.
Əlvandı sarı dağlarımız
Sanki naxışdı.

Başdan-başa Azərbaycan
Bağı – cənandı.
Mavi Xəzərin pərdəsi
Min rəngə çalandı.
El ordusudur, qalası
Qarlı Savalandı.

Yurdumda axar çaylar,
Üzüm bağları vardır.
Qışlaqları var,
ətirli yaylaqları vardır.
Ulduzlu gecə,
Güllü səhər çağları vardır.

Bozqırların ardından
Elim bir gecə köçmüş
Bu yurda qonub,
En-boyunu yaxşıca ölçmüş.
Kəhriz çıxarıbdı o
Sərin şərbətin içmiş.

Ellərdi edən Urmiyəni,
Təbrizi gülşən.
Getsən bilirəm Ərdəbilə
Bir səhər erkən
Hər pərdə elin
Nəqş və nigarın görəcəksən.

Aldanma şirin söz desə xan,
Yoxdu vəfası.
Xan bir əzəli düşmənimizdir,
Bizə asi
Damdan düşüb artıq
O hərifin yerə tası!

Dur yurd keşiyində, igidim!
Bax, oyanıq ol!
Xan südlü inək istəyir,
Ərbabı da pətrol.
Vermə, bu hərif keflidi ha!
Öz evinə yol!

Mən söyləmirəm həsrətə qatlan,
Sitəmə döz!
Bir çox analar yollara
İllərdi dikib göz.
Xan versə də azadlıq
İnanma! Nə yalan söz!

Gəl, köçmə vətəndən,
Yada bel bağlama, qardaş!
Dövran belə getməz, qalamaz
Daş üzərə daş!
Şimşək kimi çax!
Sel kimi ax!
Çalxalanıb daş!

TƏRƏHHATA İNANMA!

Ana güldür, bir gün solur,
Ana dili şirin olur.
Bizim türki şirin dildir,
Xoş sədalı, zəngin dildir.
Dil – günəşdir, işıq saçar,
Səadətə qapı açar.
Yadın dili boyunduruq!
Bir keçiddir, buruq-buruq.
Qoy yadlaşsın senatorlar,
Xalqı soyan tacir, tüccar,
Yaltaq şair yolun azsın,
Mədhiyyələr şaha yazsın.
Gəl atəşə, qızım, yanma,
Tərəhhata çox inanma!
Zənci danmaz öz dilini,
Hindi sevər öz elini.
Kimsə yolun çaşıb azmaz,
Türkü deyib, farsi yazmaz.

NƏ ANLADIQ?

Nə anladıq gəlib keçən günlərdən?
İldırımlar çaxdı, işıq əridi
Damarlarda soyuyaraq isti qan,
Vücudumuz qırıq-qırıq əridi.

Bulud kimi kölgə saldıq dağlara,
İz qalmadı gəzdiyimiz yollarda.
Güvəndik ah, o güllənən çağlara...
Bahar keçdi, xəzan çağı dağlarda,
Nə gül qaldı, nə bir meyvə, nə yarpaq.
Bir səs qopdu bağçalardan, meşədən.
– Yoxluq, – dedi, – dur gəl bizə ol qonaq.

Münəccim tək hər şey mənə aydındır:
Yağış yağıb bir çox güllər açacaq.
Şimşək çaxıb, guruldarkən dağ, dərə,
Sellər coşub qara tufan olacaq.
Əldən-ələ seyr edərək dəftərim
El içində şerim hay-küy salacaq.
Keçməyincə gözəl Leyla karvanı,
Gecə-gündüz gözüm yolda qalacaq.

GÖZƏL

Qaranlıq gecədə tufan qoparkən
İldırım tək nədən çaxmadın gözəl?
Burucu dönərkən ayrılıq günü
Nə üçün arxana baxmadın, gözəl?

Uzun gecələr ah səni gözlədim,
Səhər quşlarilə səni səslədim,
Bağçamda nəstərən gülü bəslədim,
Duru bulaq olub axmadın, gözəl?

Büründün ipəyə, bəzəndin gəlin,
Bulağa qırmızı işıq ələdin.
Ay kimi gecəni gündüz elədin,
Bir tək çıraq əldə yaxmadın, gözəl?

Dəftərimdə sənə naxışlar vurdum,
Meşələr içində alaçıq qurdum.
Nədən bağımda ey qara gözlü "Rum"
Saçlarına bir gül taxmadın, gözəl?

QAR YAĞIB ÜSTÜMƏ

Qar yağıb üstümə, qara ağacam
Əsməyincə yellər, qarlar tökülməz.
Qonublar qarğalar başıma axşam,
Ağırdır, axşamın dərdi çəkilməz...

Günbatana sarı uzanır yollar
Yolların sonunda qanlı diyar var.
Gecələr orada bayquşlar ular
Xəzanı yaslıdır, baharı gülməz.

Qara tufan salıb yenə hay-huyu,
Bağlarda tikanlıq, yollarda quyu.
Zəhərlənib çoxdan çayların suyu,
Zəhərli çayların suyu içilməz.

Məşriqdə sitəmin təndiri yanar,
Şair dərvişliyi səltənət sanar,
Qara selə ancaq dağlar dayanar,
Namərdlərə mərdin başı əyilməz.

Üstümə qar yağsa günəş əridər,
Şimal yeli yeri gülüstan edər.
Yad vurub ellərə qara ləkələr
Göz yaşilə bunca ləkə silinməz.

İNQİLAB

Payız idi, sərin yellər əsirdi,
Ağaclardan solğun yarpaq əlirdi.
Ələ aldı çomaq, geydi çarığın
Tərk elədi doğma yurdun, oymağın
Yola düşdü səhər çağı Təbrizdən
Dağ yolunda içdi axar kəhrizdən.
Qaranquşlar köçməmişdi bağlarda
Toyuq, xoruz eşenirdi ortada.
Dağı, daşı bürümüşdü al günəş,
Qalanmışdı quru yonca, ot, küləş.
Girdi kəndə, tıqqıldatdı qapını
Dedi: – Ay qız pəri, Məhidi!
Gəl bəri.
Güllü bacı çıxdı dərhal pəyədən
Dedi: – Səməd xoş gəlibsən.
Gəl görək.
Sərinləşib hava, bəlkə üşürsən
Dur gəl evə, verim sənə çay, çörək.
Pay saxladım sənə təndir aşından
Çıxart hələ papağını başından.
Nə var, nə yox, bir de görüm şəhərdə?
– "İnqilab var Güllü bacı hər yerdə!"
– O nə demək dayna? Nədir inqilab?
– O bir yağlı paydı, ballı halvadı.
– Qadan alım, bəs o halva hardadı?
– Vəzirimiz göndəribdir Təbrizə.
Bu gün, sabah bacı, verərlər sizə.
Fikrə getdi, Güllü dedi: – İnanmam.
Mən bir türkəsayaq arvad, heç qanmam.
Gəldi kəndə qarnı yoğun hökmran
Payladılar "məşrutə"ni bir zaman.
Yetişmədi bizə, xanlar bölüşdü,
Kəndxuda da onlar ilə görüşdü.
Taladılar var-yoxunu ellərin,

Apardılar əkinçinin yerlərin.
"Məşrutə"dən bir şey bizə çatmadı,
"İnqilab"dan qadan alım, deyirsən.
Kəndlilərə bu dünyada nə çatar?
– Sanma bacı, dünya belə qalacaq.
Sönməyəcək yandırdığın od, ocaq.
Ağ inqilab yaraları sağaltmaz.
Qış tükənər, yenə kəndə gələr yaz.
Baxacaqsan bir gün dağdan gün aşdı
İşığından sönük gözün qamaşdı.
Palçıq evin, qara pəyən yıxıldı.
Ağ kərpicdən sənə otaq tikdilər.
Nəvələrin şəhərə dərsə getdilər.
Çay-çəmənlər, bağ-bağçalar bölündü,
Uzaqlardan aydın səhər göründü.
Xatircəm ol bacı, deyim mən açıq
Bir də olmaz kəndistanlı dərbədər.
Aydınladar yurd-yuvanı ağ işıq,
Yurdda qalmaz "Rəhəti"dən bir əsər.

BAĞDAGÜL

Bağdagül, qadan alım
Şəkərim, sarı balım.
Tozlandı sən gedəli,
Daş aynam, güllü xalım.

Uzundu gecə bitməz,
Çırağım işıq verməz,
Ay çıxır, gəl ey gözəl,
Kölgə tək bağçanı gəz.

Gün idim, hər axşamda,
Tif idim billur camda,
Lalə idim, kəklik otu
Yaz günü yaşıl "Yam"da.

Xatirən gözəl qaldı,
Payızdan xəzəl qaldı.
Toz basmış dəftərimdə
Sənə bir qəzəl qaldı.

BATBAT YEYƏN UŞAQLAR

Əqrəb yuvası, palçıq evlərdə,
Daş əsrindən qalma iyrənc yadigar,
Ölümü gözləyən, həyatdan məyus,
Bir ovuc ac, çıplaq kəndli yaşayar.
Hələ sökülmədən dağda dan yeri,
Taxta qapıları günəş döymədən
Tüstülər pəyələr, səs-səda qopar,
Çölə gedən olur, naxıra gedən.
Dolub boşalırkən bulaq başları
İnəklər, buzovlar sulardan içər.
Dünyaya gəlirkən yeni yolçular,
Əski yolçular da dünyadan köçər.
Analar əlləşər şirin can üstə,
Yoldan keçənləri çağırar dağlar.
Hər yerdə görünər cinli, dualı,
Zəhərli "batbat"dan yeyən uşaqlar.

Dövlətli uşağı yeyirkən qışda,
Portaqalla alma, ananas, banan,
Kəndli uşaqları meyvə dadmazlar.
Onların meyvəsi batbatdı inan...
Hakimlər buradan atını sürməz,
Acından "qurudu qapanı" görməz.
Bizim yerdə xaqan dəyişmə edər,
Kəndlini soyub da zənginə verər.
Basılarkən kitab, süslü zərnigar,
Altun diyarında xatun səs salar.
Hisli daxmalarda əkinçi çürür,
Ölkənin şöhrəti dünyanı bürür.

QURBANLIQ

Gənc azərbaycanlı yazıçı
Səməd Behrəngi Arazda üzərkən boğuldu.

Yayın isti bir günündə,
Dağdan qəmgin günəş doğdu.
Hələ o gün gün batmadan
Behrəngini Araz boğdu.

Yayıldı bir kölgə suda,
Sular aşdı, çatmalandı.
Araz özün bir yel sanıb,
Behrəngini qurban sandı.

O zaman ki, bağçalardan,
Quşlar uçdu, gül ələndi.
Araz uddu qurbanlığı,
Qızıl sular həlqələndi.

Uzaqlardan axıb gələn,
Araz oğlun qucaqladı.
Qara yerdə yatdı Səməd,
Sel ağladı, el ağladı.

Behrəngini yad edərkən
Can odlanar, ürək yanar.
Dastanların oxuyanlar,
Hörmət ilə onu anar.

Zülmət çöksə üfüqlərə,
Yenə günün rəngi qalar.
Yürüş etsə şaxta, boran,
Unudulmaz güllü bahar.

QARAÇILAR

Siz çöllərdə, biz şəhərdə çürüdük,
Deyin görüm, macarmısız, yoxsa türk?
Tanrı sizi qaraşınmı yaratdı,
Yoxsa qara günlər sizi qaraltdı?
Yaxud həsrət atəşində yandınız
Həm soltanı, həm Tanrını dandınız.
Divan tutdu sizə məgər ərənlər?
El bağından yetgin meyvə dərənlər...
Ərənlərin üzün xanlar ağartdı,
Sizi qovub yelə, selə buraxdı.
Əsrlərdən bəri çöldə yaşarsız
Çöldən köçüb uca dağlar aşarsız.
Nə oldu ki, qaraçıqlar qurdunuz?
Yasalara bunca qarşı durdunuz?

Fələk sizin daşınızı atıbdır,
Aclıq, ölüm kiminizdə yatıbdır.
Nədən maşa, ələk, xəlbir sataraq
Öləyib un kəpəyinə qataraq.
Qapı-qapı gəzərsiniz hər səhər,
Olacaqdan verərsiniz xoş xəbər.
Heyran-heyran dolaşarkən dünyada
Vəd edərək "Şirin"ləri "Fərhad"a
Sizdən başqa bu aləmdə ev qızı,
Bəxtiyardır, işıqlıdır ulduzu.

Siz qatlanan zülmə dözməz qullar da,
Nə vaxtadək sürünməli yollarda?
Ac qarına diyarlardan keçirsiz,
Qonaq etməz sizi nə Rey, nə Təbriz...
Gəlin bizim ellər ilə tanışın,
Qeydi atıb bu əsrlə yanaşın!
Sitəm sözün üstünüzdən siliniz,
Bir danışın görək, nədir diliniz.

İllər boyu diyar-diyar seyr etmək,
Çadırlarda yaşayarkən qərib tək,
Heç yaraşar insan adlı kimsəyə?
Sona çatsın həm qaraçıq, həm pəyə!
Ellər, dönün yurda, yurdlar güllənsin!
Aşıqların sədəf sazı dillənsin.
İşıq gəlsin, parıldasın aynamız,
Qızıl günəş doğsun, gülsün dünyamız!

ŞERİN SƏSİ

Gün batarkən qızıllanan çaylarda
Gül açardı yazın gözəl axşamı.
Uzadardı mənə şerin pərisi
Şərab ilə dolu, altun bir camı...

Mən məst ikən, tarlalardan duyardım:
Böcəklərin aşiqanə nəğməsin...
Eşidərdim həm də yaşıl dərədən,
Meşələrdən axıb gedən su səsin.

Bürünərkən yollar naxır keçəndə,
Turunc rəngli buludlanan tozlara.
Naxır yoldan ötüb, tozlar yatarkən:
Çəmənlikdə rast gələrdim qızlara.

O qızların ən işvəli gözəli,
Uzadardı mənə bir dağ çiçəyi...
Mən o gülü bir saxsıda saxlardım...
Olsun deyə otağımın bəzəyi.

Ay doğarkən kölgələnmiş sularda,
Ayın gümüş işıqları titrərdi.
Dağ çiçəyi verən nazlı qız mənə
Şərab ilə dolu bir cam verərdi.

Mən məst ikən o dilbərin səsində...
Şerin mərmüz, dərin səsin duyardım.
O, yatarkən eşqin sönməz rəngilə,
Şerin ipək pərdələrin boyardım...

KİMLƏRDİR?

Gecə vaxtı ulduzları sayanlar,
Bulaqların nəğməsini duyanlar,
Öz ömründən usananlar, doyanlar,
Sabahatək oyaq qalan kimlərdir?

Dəniz coşub qabararkən dalğalar,
Buz suları ay edərkən zərnigar,
Gecələrin ahəngilə biqərar,
Pərvanə tək şəmə çarpan kimlərdir?

Qızıl, sarı yarpaqları dağıdan,
Sular üstə kəhrəbayi bir xəzan
Bir alagöz, sarı gülə oxşayan
Əfsununa məftun olan kimlərdir?

Axşamçağı tozlu yolda sürünən,
Uzaqlardan şübhələr tək görünən,
Qaranlığın örtüsünə bürünən,
Uzun-uzun fikrə dalan kimlərdir?

Gözəllikdən sərməst olan, olmayan,
Yar eşqindən saralmayan, solmayan,
Bir nəğməylə gözü yaşa dolmayan,
Şairləri dəli sanan kimlərdir?

Şair sözün hər dinləyən anlarmı,
Şerdəki gizli qalan min qəmi?
Anlamayan deyil könül məhrəmi,
Nəməhrəmə həmdəm olan kimlərdir?

GECƏNİN SƏSİ

Titrədir çırağı yelin nəfəsi,
Ucalır bağlardan gecənin səsi.
Ağaclar ardından göy işıqlanır,
Yarılır çinarın ipək pərdəsi.

O yarı gecədə güllənən məhtab,
Uzaq üfüqlərdə açır bir sərab.
Donuq sularda ay parçaları
Gümüş biləklər tək çırpınır bitab.

Gecənin sükutu artırır qəmi,
Ayın işığında bir xəyal kimi.
Bir quş qanad çalır, səslənir o quş
Bu gecə yarısı çağırır kimi?

O quş sevdaların əksi olmasın,
O səs xülyaların səsi olmasın,
O da arzularım, ümidim kimi
Bu qəmli gecədə sönüb solmasın.

SƏHƏND DAĞI

Səhər erkən alaçıqlar qurulmuş
"Qaranqu"nun kənarında, otlaqda.
Şəfəq gülür suda, Səhənd oyanır,
Sədəf rəngli, incə ipək yataqda.

Baxır Səhənd, keçən ilki dostları,
Gülərüzlə, uzaqlardan səsləyir...
O bir dağdır, lakin onun ürəyi,
İnsanlara dərin sevgi bəsləyir.

Deyir: – Gəlin, sürüləri otladın,
Çəmənlərim, çayırlarım sizindir.
Aclıq görüb, korluq çəkən obalar,
Gəlin için, bulaqlarım sizindir.

Sizin üçün yamacları bəzəyib,
Gözəl quşlar bəsləmişəm sizlərə,
Çıraq kimi qızıl lalə yandırıb,
Yaşıl xalı döşəmişəm hər yerə.

Gəlin qurun çadırları, buraxın
Otlasınlar otlaqlarda at, qoyun,
Uşaqları buraxınız gəzsinlər,
Od yandırıb qaranlıqda, toy tutun.

Sizdən uzaq, qara günlər görmüşəm,
Çox çəkmişəm həsrətizi, bir il var,
Deyin görüm, bu bir ildə nə gördüz?
Nə eşitdiz bu dünyada, obalar?

Gəlin için sularımdan doyunca,
Dağın malı yellərindir, selindir,
Qayalarım, suyum, otum, otlağım,
Ətəyimdə bəslədiyim elindir.

AXŞAM KÖLGƏLƏRİ

Axşamın kölgələri
Açılar zanbaq-zanbaq.
Tökülər su üstünə
Sayələr yarpaq-yarpaq.

Axşamlar qızararkən
Suların həlqəsində,
Görünər bağ və çəmən,
Güllərin pərdəsində.

Gündüzün işıqları
Ərirkən çeşmələrdə,
Sürünər dağa sarı
Kölgələr pərdə-pərdə.

Gümüş rəng buludlardan
Doğarkən gözəl mehtab,
Açılar suda həmən
Füsunkar gümüş sərab.

BİR QULAMIN GÜNAHI

Bir tacir qulamı ki, əzəldən talesizmiş,
Sarayda xacə üçün dəyərsiz çalışardı.
O gözəl bir gənc idi, amma ki, qulam idi
Görəndə ev qızını odlanıb alışardı...

Bir gecə saray içrə hər yerdə qəndil yandı
Qələmkar süfrələri döşədi qulam yerə.
Qonaqlar gəldi bir-bir, içildi qızıl şərab,
Hər yerdən danışdılar, qalmadı təpə, dərə.

Bu ara sərxoş xacə qulamı səsləyərək,
Sərin su xahiş etdi naxışlı kasasında.
O kasa Çindən gəlmə, mərcan tək bənzər imiş
Ağ örtü üzərində hindin al adasına.

Deyirlər bir qonağın o qaba gözü dəydi
Eyvanda düşdü yerə, daş üstə parçalandı.
Təşvişə düşdü Qulam, titrəyib qaçdı rəngi
Bu qəza üzərindən od tutub xacə yandı.

Saraya gəldi darğa, qulamı zəncirlədi
Aparıb bir daxmada ac-susuz buraxdı da.
Dan yeri açılanda qulamı suya salıb
Sonra da şallaqlayıb, dedi: – Ey haramzada.

Xacənin kasasını nə üçün sındırmısan?
– Vurma, qoy düzün deyim, dedi ey darğabaşı.
Xacənin gözəl qızı baxırdı pəncərədən
Ayağım sürüşdü də görmədim yonma daşı.

Zindana salındı o bir neçə aydan sonra
Qazının əmri ilə ölümə məhkum oldu.
– O, qıza aşiq imiş, bu gizli dərd üzündən
Qaranlıq yerdə gül tək saralıb, həm də soldu.

"Bəlx"dən gəlmə qazı bir "adil" adam imiş,
Boğarmış ədl adı ilə elləri payız və qış.
Soruşdu günahsızdan: – De görüm, yazıq oğlum,
Ulduzun sönük imiş, tuş oldu sənə ölüm.
Nə ilə bu gün ölmək istəyirsən? Dedi Qulam:
– Ev qızı mənə versin zəhərlə dolu bir cam.

Eşikdə eşidildi sübh çağı qadın səsi,
Göründü evin qızı əlində mey piyaləsi.
Qız, qələm qaşlı dilbər, dayanıb dözdü bir az.
Gözləri yaşla dolu, qulamı süzdü bir az.
Qədəhə titrək əllə zəhərli şərab tökdü
Döşəyib ətəklərin yer üstə dizə çökdü.
Su nədi, şərab, qulam içərək rəngi soldu.
Saralıb bət-bənizi, qanına zəhər doldu.
Çatladı dodaqları, boğunuq çıxdı səsi,
Sevgili yara dedi: – Ey ölüm fəriştəsi
Mən əzəl gündən inan sevmişəm candan səni,
Yenə də şərab sula, məst qıl, gözəl məni.

Aşiqin ölümünü gördü qız, oldu qəmgin,
Zəhərli sürahiyə uzatdı o da əlin.
Bu ara pəncərədən sarı gül işıq saldı
Xəzanlı daxma içrə, qız qaldı, qulam qaldı.

MAHNILAR

Dağlar daşdı, qayadı,
Gün üfüqü boyadı.
Bizim ellər sevərlər
Həm aşnanı, həm yadı.

İstər bahar, istər qış,
Dağa vurar min naxış.
Dünya görmüş sərabsa,
Gənclik qızıl röyamış.

Əzizim ey, gün batdı,
Gecə gəldi yel yatdı,
Yusif kimi igidi
Bir yumağa kim satdı?

Qar, ağ güllü çəməndir,
Tanrı, bir qar ələndir.
Qar zənginə ipəksə
Yoxsullara kəfəndir.

Gecə zülmət, mənzil dar,
Qapı-baca qardır, qar.
Ölüm, qapı açıqdır
Çılpaqları gəl apar.

Işıq yoxdur fələkdə,
Un qalmamış ələkdə,
Qara ölüm gəlibdi
Qapıları döyməkdə.

Lampada yağ qalmayır,
Şair fikrə dalmayır.
Ay dünyayı bəzəsə
Bizə işıq salmayır.

Yad bəzədi ordusun,
Qırğın salıb tökdü xun.

Fələk, çərxin qırılsın
Günəş, odun sovusun.

Qırpıq gözə ox dəyər,
Nadan bütə baş əyər,
Tülkü qurddan qorxanda
Quyruğunu tərpədər.

Bu dünyanı ay bəzər,
Suda işıqlar gəzər.
Bəzən zülmət içində
Könül aydınlıq sezər.

Qayalar yalçın-yalçın,
Sel suyu axın-axın,
Uçurum ağız açıb:
Atını sürmə, sakın!

Sahir gecə yatmazmış,
O, elini atmazmış,
Xəlqin isti aşına
Soyuq sular qatmazmış.

***

Analar qara geyib,
Bəzənib şah arvadı.
El-oba yas içində,
Toy-düyün saraydadı.

Qopubdur qara tufan,
İstidir qorxunc Tehran.
Bir neçə ölüm hökmü,
İmzalayır namərd sultan.

Ay söndü, ulduz batdı,
Karvan yükünü çatdı.
Namərdlər bir gecədə,
Vətəni yada satdı.

Yüksəlməz, mədh etsələr,
Şairlər bir o başı,
Namərdin qulu quldur,
Günəşə çatsa başı.

Ulduzlar gümüş xaldı,
Ay suya işıq saldı.
Gözlədim, gəlmədi yar,
Gözlərim yolda qaldı.

Keçdi son qəmli gecə,
Ulduzlar da batdılar.
Dan yeri işıqlandı,
Məhkumu oyatdılar...

***

Qar əridi, axar sular lilləndi,
Çay-çəməndə öcək-böcək dilləndi.
Bağ-bağçada yenə badam gülləndi,
Hanı yurdlar, hanı ellər, hanı yar?

Kim alnına qara yazı yazandı?
Az ömürdə qarà günlər uzandı.
Bura qürbət, nə "Lalə", "Şamqazan"dı[1]
Hanı yurdlar, hanı ellər, hanı yar?

Gün qızardı, sular oldu zərnigar,
Daşdan-daşa çaldı bizi rüzigar.
Yağış yağdı, yenə gəldi ilk bahar.
Hanı yurdlar, hanı ellər, hanı yar?

İllər boyu zülm gördük qulaq as,
Əsir olduq, toy düyünlər oldu yas.
Boyundakı zəncirləri basdı pas,
Hanı yurdlar, hanı ellər, hanı yar?

[1] Kənd və yer adlarıdır.

Hankı ocaq keçdi, hankı odlandı?
Şer, qəzəl dəftərləri tozlandı.
Demək, "insan hüquqları" yalandı!
Hanı yurdlar, hanı ellər, hanı yar?

Qar əridi, sel suları atlandı,
Dəli könlüm hər dərdlərə qatlandı.
Yazıq cismim iynələrə saplandı...
Hanı yurdlar, hanı ellər, hanı yar?

***

Əkinçi əliylə dağ ətəyində
Payızda əkilən cavan gilənar.
Baharda bəslər bar, ağ çiçəyində
Yayda meyvə verər qırmızı gilənar.

Çəkilən əməklə açılar güllər,
Dalğalanar çöldə sarı sünbüllər,
Bağlarda göyərən ətirli gülpər
Aydınladıb gözü, könülü oxşar.

Palçıq daxmalarda böyüyən qızlar,
Yabanı çiçəklər, sarı ulduzlar,
Yağışlı payızlar, günəşli yazlar,
Bu qara torpağı edərlər gülzar.

Onlar ki, dünyadan çox tez köçərlər,
Xırmanları döyüb, buğda biçərlər,
Qara çörək yeyib, şor su içərlər,
Bir gün kor yuxudan olarlar bidar.

Səhər nəsimilə güllənən otlaq,
Çəməndə açılan susəni, zanbaq,
Dünyanı bəzəyən əməkdir, ancaq,
Olmazsa qara qış, güllənməz bahar.

***

Dağlar daşdı, qayadı, gün üfüqü boyadı,
Bizim ellər sevərlər həm aşnanı, həm yadı.

İstər bahar, istər qış, dağa vurar min naxış,
Dünya görmüş Sərabsa gənclik qızıl röyaymış.

Əzizim, ey gün batdı, gecə gəldi, yel yatdı,
Yusif kimi iyidi, bir yumağa kim satdı?

Qar ağ güllü çəməndir, Tanrı, bir qar ələndir!
Qar zənginə ipəksə, yoxsullara kəfəndir.

Gecə zülmət, mənzil dar, qapı-baca qardır, qar,
Ölüm, qapı açıqdır: – çıplaqları gəl apar.

İşıq yoxdur fələkdə, un qalmamış ələkdə,
Qara ölüm gəlibdi, qapıları döyməkdə.

Lampada yağ qalmayır, şair fikrə dalmayır,
Ay dünyanı bəzəsə, bizə işıq salmayır.

Yad bəzədi ordusun, qırğın salıb, tökdü xun!
Fələk, çərxin qırılsın! Günəş odun sovusun!

Qırpıq gözə ox dəyər, nadan bütə baş əyər,
Tülkü qurddan qorxanda, quyruğunu tərpədər.

Sahir gecə yatmazmış, o elini atmazmış,
Xəlqin isti aşına, soyuq sular qatmazmış.

Bu dünyanı ay bəzər, suda işıqlar gəzər,
Bəzən zülmət içində, könül aydınlıq sezər.

Qayalar yalçın-yalçın, sel suyu axın-axın,
Uçurum ağız açıb, atını sürmə, sakın!

PARK

Burası bir yaşıl, səfalı cənnət,
Hasarları odlu və gurultulu...
Kölgədə oturub bir zəngin adam
Əsil cənnət əhli, Tanrının qulu.

Burası bir bağdır, həm də gözəl bağ,
Göyü açıq mavi, havası tozsuz.
Gün pərdədən keçib yayılır yerə,
Torpaq üstə yatıb avara bir qız.

O toxucu qızdır Kirmandan gəlmə,
Babası ölübdür, itib anası.
O bir fahişədir, zavallı insan,
Damdan onun artıq, düşübdür tası.

Burası Tehranın lap göbəyində
Qurulan vahədir və gülən röya.
Axın-axın gəlir işsiz adamlar
İşsiz adamlar ah, gəlməzlər saya.

Bir "sığınacaq"dır bu şəfəqli bağ
Sürgün edilənə, yurdsuz olana.
Bu cənnətdə yaşar cəhənnəm əhli
Kövsərindən içərlər qana-qana.

Bir yerdə dərs oxur, yoxsul tələbə,
Onu məşğul edən elm, həvəsdir.
Budur, uzaqlardan qopur bir səda,
"Bəxtiyarlıq satan" uşaq səsidir...

Bax yolda dilənən "ab hövüzü" dür,
Günəşdən yanmış bir qoca kəndli...
Kövşəndən qovulmuş binəva adam
Onu başa salmır Tehranın dili.

Burası bir yaşıl cənnət olsa da,
İlham verməz heç şair olana.
Bu bağın torpağı, gülü, çiçəyi,
Göz yaşilə islaq boyanmış qana.

Burası bir bağdır, örtmüş ağaclar,
Ondakı pisliyi yadlar gözündən.
Burası bağ deyil, qara ləkədir,
Silinməzdir əsla Tehran üzündən.

ŞİRAZLI ŞAİR XOCA HAFİZ

Səni "Xoca" qəzəllərin odladı,
Yoxsa türkün gözəlləri odladı?
İşıldarkən qırıq bir ay dağlardan,
Duyularkən bülbül səsi bağlardan,
Əfsanələr diyarından keçdin sən,
Gəbrin qızıl şərabından içdin sən.
Sənə güldü mavi səma, göy çəmən,
Yarın əksin piyalədə görərkən.
Qələm alıb qəzəl yazdın, yatmadın,
Qəzəllərin qızıl pula satmadın.
Xərabata gedib, qaçdın saraydan,
Saraylarda bildin od var, zəncir, qan...
Bir "Loli"nin saçlarına gül taxdın,
Bəzənəkli xatunları buraxdın.

Şairlərlə Hafiz, sənin işin yox,
Bilirəm ki, dərdin çoxdur, qəmin çox.
Səni eşqin yanar odu qovurmuş,
Xəzan sənin güllərini sovurmuş.
Qaranlıqda tufanlara tutuldun,
Başın dönüb, oldu sənin könlün xun.
Sahillərdə baxdın işıq evlərə,
Göz gəzdirdin hər bucağa, hər yerə.
Yardımına əsla bir kəs gəlmədi,
Boğulanlar halın kimsə bilmədi.
Karvan keçdi, yol üstündə inlədin,
Cirelərin sədasını dinlədin...
Qapısında mərifətsiz ərbabın
"Məddah"lar tək çöl palazın salmadın.
Gecə ötüb, gündüz gəzdin dərbədər,
Bazarlarda ipək gördün simuzər.
Çağırmadın yardımına kimsəni,
Şərab üçün girov qoydun xirqəni.
Sərxoş olub tozlu yoldan keçərkən,

Bağçalarda gördün açıb nəstərən.
Şirazlı bir türk gözəlin görəndə,
İpək donun, məxməlilən görəndə
Vuruldun sən bəzəyinə, alına,
İki şəhri bağışladın xalına.
Mərifətsiz görüb Şiraz əhlini.

Tərk elədin yurd-yuvanı, elini.
Yollar keçib xarabada yatdın sən,
İncilərin başqasına satdın sən.
Zəhərlədi səni ürfan şərabı,
Üfüqlərdə gördün tutən sərabı.
Dedin açan hər müşkülü şərabdır,
Ömür qısa, arzu evi xarabdır.
Alimləri dedin yolun azıblar,
"Sərneveşti" alınlara yazıblar.
Dünya dedin davamsızdır, binyadı,
Bir qarıdır min kişinin arvadı.

Bəzədinsə Hafiz, zəngin şerini,
Anlamadı kimsə sənin şerini.
Dünya dönər, keçər qışlar, gələr yaz
Hafiz səni, "mollabaz"lar anlamaz.
Hafiz, sənin şerin dərin dəryadır,
Şer deyil, bir xəyaldır, röyadır.
Fars dilini incilərlə bəzədin,
Çirkin qızı demək zərlə bəzədin.
Aclıq çəkib, həyatında saraldın,
Sürünərək gündüz, gündə qaraldın.

Ləzzət duymaz kor olanlar gözəldən,
Ölülərə tapar ocəm əzəldən.
Məzarlıqdır bu yer, itlər hürərlər,
Sənətkarı sürgünlərə sürürlər...
Bu torpaqda bir çox hərzə ot bitər,
Hərzə otlar içrə qızıl gül itər.

Şairləri zindanlara atarlar,
Sularına acı zəhər qatarlar.
Onlar üçün sonra türbə tikərlər,
Bəsləyərlər onda göy ot, gül-çiçək.
Ölənlərin yeri yaşıl cənnətmiş,
Dirilərin yeri uzaq qürbətmiş.
Yuva salmış burda divlər, şeytanlar,
Divan tutar xalqa yoldan azanlar.

Divanını oxuyarkən hər axşam
Hafiz, sənin əhvalına acıram.
Ömür boyu aydın bir gün görmədin,
Muradınla bir gün həyat sürmədin.
Həyatında, xarabada yatdınsa
İndi yerin bir gülşəndir, xülasa.
Başın üstə gecələri şam yanar,
Pərvanələr qanadları odlanar.
Sənin üçün bülbül ötər gecələr,
Əsmər qızlar bağ-bağçanda dincələr.
Divanını açıb səni anarlar,
Aşiq olub atəşinlə yanarlar.

YƏZİDİN SARAYI

Ağ-gümüş minalı qəndillərin al şölələri,
Qanlı izlər buraxıblar suların çəngində.
Mavi, firuzə saray aynalara şəfəq salıb
Görünür aynada bir pərdə, səma rəngində.

"Roma"dan qalma o həşəmətli və yıldızlı saray
Qırx sütun üstə duran dalğalı bir dəryadır.
Ağ ipək pərdələr ilə bəzənən qəsr "yəzid"
Sanki şəhərin gecəsində açılan röyadır.

Atəş içrə yanan ud məclisə bir nəşə verib,
Oynayırlar bəzənəkli kölələr, cariələr.
Əlli beş başqa kənizlər yarı çılpaq, bitkin,
Məclisin əhlin əfsunlayaraq sərxoş edər.

Bürüyüb ud və rübab səsləri, hər kəs gülüşür,
İçilir badə gülgün, qırılır cam billur.
Bu gecə "şam" bəzənilmiş və saray toy tutmuş
"Kərbəla" fəthi üçündür qurulan bəzm sürur.

Fil dişilə bəzənən bir uca təxt üstə yəzid
Oturubdur, deyəsən qələ açan firondur.
Qan içən, ev yıxan ol zalimə qasid gətirib
Qanlı bir hadisədən, faciədən, yaxşı noid.

İndi qırx gün quru çöllərdə gəzən bir karvan
Yanaşır ay işığında təpənin zirvəsinə.
Dəvə üstündə susuz, ac qalan arvad və uşaq,
Qulaq asmaqdadılar qəsrdə bayram səsinə.

Dəvələr yorğun, uşaqlar daha bitgin, eyvah,
Hamı bir səslə susuzluqdan edir ah və fəğan.
Şəhərin tunc qapısı qorxulu səslə açılır,
Süngülü bir neçə əsgər görünür yollardan.

Gecə keçmiş yarıdan, kollar, içində bir quş,
Oxuyur kölgələrə gizlicə bir şer fəraq.
Qara yarpaqları yel tərpədir, ay dağda sönür,
Ağlaşırlar yenicə Şama gələn əhli İraq.

Mavi, firuzə sarayda içilir qırmızı mey,
Quru torpaqda yatanlar gecə xunanə içir.
Orda minlərcə çıraq, minalı qəndil varkən,
Burda bir qupquru ay var, o da zülmətdə keçir.

Qərinələr keçdi, dəyişdi cahanın özəyi,
Amma cəlladların əhvalı dəyişməz qaldı.
Bir çox atəş soyuyub, sönmədi zülmün alovu,
Sönmədi, yandı və aləmlərə atəş saldı.

MÜRŞİD

Yağışla sulanmış gül bağçasında,
Şəbnəm parıldarkən lalə tasında,
Başında oturdun axar suların
Seyr etdin hüsnünü o son baharın.
İsfahan xalçası altına saldın,
Qəlyanını çəkib xülyaya daldın.

– Heyf olsun, dedin solan güllərə,
Bu su kimi axıb keçən ömürə.

Gecələr yaldızlı evində yatdın,
Bir gözəl qadına imanı satdın.
Günəş yayılanda açdın gözünü,
Aynalarda gördün çirkin üzünü.
Ah çəkib söylədin: – Ömrüm çürüdü,
Günəş batdı, dağı duman bürüdü.

Bəzən məclis qurub al şərab içdin,
Sevdaların yeddi şəhrindən keçdin.
Sözdə İsa kimi dünyanı atdın,
Torpağını xalqın qızıla satdın.
Dedin: Arzuların qəsri xərabdır,
Dirilik əfsanə, dünya sərabdır.

Fırtına qopanda evində qaldın,
Qiyamət gününü yadına saldın.
Dedin: – nə müsibət, nə tufan, yahu!
"Ac pulsuzlar"ınmı günahıdır bu.
Nahaq qan töküldü, adam qırıldı,
Ölülər başından qalaq quruldu.
Sən "məntiq əltiri" oxudun bir də
Göydə gəzdin, xəlqi görmədin yerdə.
Yadlara özünü satdın, məni də.
Çürütdün ömrümü, saldın min dərdə.

Köşəni qoymadın bəzəyim mən də,
Göz dikdin də bizim xaraba kəndə.
Üfüqümdə gülən günü söndürdün,
Məni boğdu aman, tozlu qara gün.
Qorumadın məni, aclıq ilində,
Qoymadın danışam ana dilində.
Dünya dəyişildi, ellər oyandı,
Zülmətlər içində işıqlar yandı.
Sən qara bulud tək günəşi boğdun,
Hər gün iblis kimi bəlalar doğdun.
Yad arabasına bağlandın özün,
– Sürünürəm dedin, gəl sən də sürün.

DƏMİRLİNİN ƏTƏYİNDƏ

Parıldayır inci tək səhər çağında,
Fəcrin göz yaşları yarpaqlar üstə.
Buludlar aşır uca dağları,
Sürünür kölgələr otlaqlar üstə.

Çardaqlara qonan günün işığı,
Öpür Dəmirlinin dodaqlarından.
Yarpağın səsi tək sevdalı ahəng,
Eşidilir kəndin bulaqlarından.

Nişanlı qızların baxışlarında
Ümid alovları olur nümayan.
Hər yerdə açılıb qızıl çiçəklər
Azadlığın günü doğan zamandan.

Yaşıl tarlalarda bitən sünbüllər
Kəhrəbayi xirmən hazırlamazmı?
Bunca sarı gül tək açan gəlinlər
Yeni bir dünyayi qurmağa azmı?

OYAN, EY SEVGİLİM!

Dağdan ay çıxar, ağ pəncə açar,
Yaralı könlüm dərdlərə dolar,
Üzünə baxdıqca quşum qonar
Oyan, oyan, ey sevgilim, oyan!

Eşidilən səs karvan səsidir,
Odlanan şamın son nəfəsidir.
Aşıq Qəribin hicran bəsidir
Oyan, oyan, ey sevgilim, oyan!

Məşriqdən çıxır ülkər ulduzu,
Canda atəş var, ürəkdə suzi,
"Qara çəmən"in sarışın qızı
Oyan, oyan, ey sevgilim, oyan!

Yel əsib, quru xəzəl tökülür,
Ülkər batır, dan yeri sökülür.
Çox yorğunam, dizlərim bükülür...
Oyan, oyan, ey sevgilim, oyan!

Yaralıyam ah, üz-gözümdür qan,
Ölüm göz önündə, verirdim can,
Bir içim su ver, yanıram aman,
Oyan, oyan, ey sevgilim, oyan!

Qoy su içib də öpüm alnından,
Tökülsün bir az saçlarına qan,
Məni bəkləyir qara karivan...
Oyan, oyan, ey sevgilim, oyan!

Dünyanın əhli qan yaş silməzdir,
Əcəlin peyki aman bilməzdir,
Gecə yolçusu gedər-gəlməzdir...
Oyan, oyan, ey sevgilim, oyan!

MUĞANDA QURAQLIQ

I

Muğanda düşdü quraqlıq, çayır, çəmən yandı,
Günəş qızardı səhərdən, üfüq alovlandı.
Qoyun-quzu qırılıb, mal-qara həlak oldu,
Və Şahsevən elinin nobaharı tez soldu.

Bir ay içində bir illik əməklər oldu hədər,
Dağıldılar alaçıqda ömür sürən ellər.
Çobanlar öldü, çoban itləri təbah oldu,
Deyən, gülən elin ey vah, günü siyah oldu.
Gecə çadırda yanan lampalar keçib getdi,
Bu bir hekayət idi, dünyada olub bitdi.

II

İşıqlara boyanarkən o möhtəşəm şəhərin,
Yanaşdı darvazaya ac, susuz qalan karvan.
O şəhərdəki duman tozuna çəkər örtük
Qonaqlara demədi bir nəfər də: – Xoş gördük.

Sərildilər quru yerdə, oturdular naçar
Sarayda toy tutulanda, yananda şamdanlar.
Çıraq, çörək qonağa kimsə vermədi yalnız,
Gecəylə itdi üç oğlan, kiçik, gözəl bir qız.

Bütün bazar, küçəni gəzdi üç kişi bica,
Uşaqların sorağın kimsə vermədi əsla.
Günorta gəldi polis, ac qalanları qovdu,
Demək ki, zəngin olandan qada-bala sovdu.

Yer axtarırdı köçənlər şəhərdən azca kənar,
Tapıldı bir xaraba, orda bir geniş anbar.
Kilim döşəndi, uşaqlar bir-bir yatdı,
Uzandı kölgə, bir az sonra da günəş batdı.

Qaranlıq oldu, qəbilə düşüncəyə daldı,
Bir arvadın şüşə bir lampası işıq saldı.
Biri samavarını qaynadıb, ucaldı səsi,
Samavarın odu söndü, kəsildi zümzüməsi.

Çörək tapılmadı bir süfrədə, dağarcıqda,
Saraltdı bir gecədə el-obanı aclıq da.
Uşaqlar öldü acından, dağıldı şəhərə oba,
Muğan gəlinləri ey vah, diləndi, öldü gəda.

III

Muğan mahalına getdim, qarış-qarış gəzdim,
Sənin sorağını tutdum, payız və qış gəzdim.
Vətəndə ah nə gözəllik, nə bir səfa gördüm,
Sönük ocaq, quru kəhriz, yıxıq koma gördüm.

Çiçəkli, güllü çəmənlər məni qucaqlarkən
Sənin dalınca gözəl bax, bu şəhərə gəldim mən.
Bu zülmətə qovuşub öz muradıma çatdım,
Xəraba içrə demək, gənc axtarıb tapdım.

Günəşlə şölə çəkən daşlı çölləri keçdim,
Və ölmədən ölümün sərt şərabını içdim.
Nədənsə görmədim, əsla, gəzəndə mən şəhəri
Xəyalımın üfüqündə gülən yaşıl hədiqələri.
O sözdə, sazda gülən güllənən şəhər bu imiş?
Gözəlligilə cahanda olan səmrə bu imiş?

Səadətin quşu burdan keçib qanad çalmaz,
Məhəbbətin ağacı torpağında kök salmaz.
Bu yerdə zülmət udubdur bütün işıqları ah,
Yeni nəsil çürüyübdür, fəna olub, gümrah.

Şimalda bağçaları xəsrivanə yurdu, burax,
Cənubda "zağa"lara, palçıq evlərə bir bax.
Şimalda dum-duru su, yam-yaşıl çinar vardır,
Cənubda odlu günəş, qap-qara sular vardır.

Budur, ağır araba həml edən arıx rikşa,
Əcəmlər içrə yeni meydana çıxan geyşa,
O süslü bir araba zəngini bağa aparır,
Yalın ayaq gedənin də ayaqları qabarır.

Bu yanda it ölüsü, pis qoxan sular, küllük,
O yanda tozlara batmış yaşıl çəmən, güllük.
İpək geyimli, bəzəkli xanımlara baxma,
İşıqlı restorana, dansiğa, bara baxma.

Yol üstə lüt uşağı, ac qadınları seyr et,
Xərabələrdə yananlar sorağına bir get.
Qanad gəribdi bu yerdə qızıl sevən şeytan
Əlində od və dəmir, hər gecə deyir qan-qan.

Ağız açır qara zindan, udur ilan kimi ah,
İşıqlı ali cahana gedənləri gah-gah.
Qızıl kalsçaya gəl bax, yada vətən satanı
Havayı nəfəs yolunda günahlara batanı.

IV

Budur, bizim elimiz köşəsin, evin buraxır,
Axın-axın bu bəlalı cəhənnəm içrə axır.
Demək ki, saxsıya satmış cəvahiri elimiz?
Bu tozlu bulud üçün tarmar olub Təbriz.

Çiçəkli, güllü çəmənlər məni qucaqlarkən,
Sənin sorağını aldım, bu şəhərə gəldim mən.
Səni xarabada tapdım, fəlakət içrə aman,
Səni əritdi gözəl qız, alov saçan Tehran.

Gəl indi Qərbə sarı, dağları aşıb gedəlim,
O yerdəki yaşayır indi oymağım və elim.
"Qaranqu"nun kənarında, çadır qurub oturaq,
Bizə əzizdi o köşən, o qarlı dağ, torpaq.

Gecə axar suların incə nəğməsin eşidək,
Və tozlu yolda gedən karvanın səsin eşidək.

MAKSİM QORKİYƏ

O məftun olduğun əngin dənizə,
Sular içrə doğan qızıl günəşə,
Gecə yarısında sədəf yol açan,
O ay işığına, gümüş atəşə
Mən də sənin kimi, heyranam, heyran.

Yağışlı səhərdə ağ martıların,
Boz sular üzərə o tiranların
Məni də qəmlədər, mən də görmüşəm.
Sular qabaranda "ağ" atanları,
Mən də balıqçının ağın hörmüşəm.

Gecə yarısında ağır qayıqda,
Dalğalara çarpan kürək çəkənlər.
Yelin nəfəsilə sönən fanuslar
Suda boğulanlar, qırıq yelkənlər
Dərin düşüncəyə məni də salar.

Yaxıcı günəşdə qan-tər içində,
Quldur xanlar üçün biçin biçənlər.
Quru çörək yeyib şükür edənlər,
Sınıq kuzələrdə şor su içənlər,
Ürəyimi odlar, məni də qəmlədər.

Baharda güllənən çayır, çəmənlər
Səhər nəsimilə əsən yarpaqlar.
Quş səsilə dolu qızıl zəmilər,
Kəklikotu qoxan sərin yaylaqlar
Mənə səhərin aydın yolun göstərər.

"Məditranə"nin mavi örpəyi
Parlaq gündüzləri, aydın gecəsi,
Və ay işığında göyə yüksələn
Rum qızlarının o füsunkar səsi
Şərimdə izləri açılar həmən.

BİZİM MƏHLƏ

Gün boyarkən dağı, qapı açılar,
Palçıq divar ardı görünər bahar.
Gecəylən açılmış məxməri güllər,
Yarpaqlar içindən üzümə gülər.

Burası Qızıl su, bizim yurdumuz,
Təbrizin gözündə işıqlı ulduz.
Səhəri aydın və şəfəqi rəngin,
Yaşıl bağçaları bir cənnət təkin.

Pəncərə açılar, tərpənir pərdə,
Allı-pullu gəlin eyləyir xəndə.
Çıraq kimi yanır hər səhər çağı
Sulayıb süpürür, damı, otağı.

Bürünc səmavara od salır, sonra
Bəsti götürüb və gedir bayıra.
Məscid anbarından sərin su daşır,
Gün düşür üzünə, gözü qamaşır.

Kilimi döşəyir, açır süfrəni,
İncə bir səs ilə çağırır məni.

Gün yayılanda və bostanda gah-gah,
Onu gözətləyir qurulu dəzgah.
O cecim toxuyur, qırağı çin-çin,
Bir tikə çörəklə yaşamaq üçün.

Gəlin gecə-gündüz çalışır, amma,
Əyini bəzənmir, zəngin olmur da.

Gün boyamır artıq dağı, dərəni,
Gəlin çağırmayır bir daha məni
Burası Qızıl su xaraba diyar,
Xaraba diyarda könülmü açar?

Məxməri güllər ah, payızla solub,
Sazlı-sözlü evə matəmlər dolub.

BAYATILAR

I

Bir gün varmış, bir gün yox,
Gün doğandan çıxarmış.
Yazdan, yaydan sonra da
Görünərmiş payız, qış.

Gömgöy Xəzər suyunda,
Yelkən açarmış yatlar.
Çadırların içində
Yaşarmışlar Bayatlar.

Bir gün yenə bu gün tək,
Dönərmiş çərxi-fələk.
Yaylaqları bəzərmiş,
Yaşıl çəmən, al çiçək.

Çinar kölgə salarmış,
Həm payızın, həm yazın.
Yerdən qalxıb havada
Torağay çalarmış sazın.

Gün buluddan baxarkən
Qövsi-qüzeh gülərmiş.
Karvan keçərkən yoldan
Ala köpək hürərmiş.

II

Xirmən sonu çərçilər,
Ayın-oyun satarmış.
Dağda, bağda sevişən
Muradına çatarmış.

Biçilərmiş məxməl don,
Cavanların boyuna.
Uzaq ellər gələrmiş
Qız-gəlinlər toyuna.

El şairi qoşarmış
Bayatılar, mahnılar,
Hər şerində gülərmiş
Qızıl xəzan, göy bahar.

Qalaq-qalaq od yaxıb
Gənclər bütün oynarmış.
Toya gələn qocalar
Keçən günü anarmış.

Şam yanarmış evlərdə,
Dağda gəvən çırağı.
Süslənilmiş ipəklə
İşıq, gəlin otağı.

III

"Bayatlar"ın dövründən,
Zaman aşmış, gün keçmiş.
Ellər ölüm əlindən
Acı-acı mey içmiş.

Lakin tufan qopmuşsa,
Qurumamış kökümüz.
Budaq verər, gül açar,
Bahar və qış kökümüz.

Aşıq şeri elləri
Edərmişsə biqərar.
Yazar Sahir bu gün də
Əsrə uyğun mahnılar.

Saz şairi qədimlər
Deyirmişsə "bayatı"
Mən də "bayatı"larla
Dirildərəm "bayatı".

***

Ortalıq kölgələndi
Yel əsdi, gül ələndi
Yar bizə qonaq gəldi
Çıraqlar şölələndi.

Kölgələr pərdə-pərdə,
Qulaq ver, yazıq dədə
Zindana düşən qızın
Solmuşdu bir gecədə.

Yollardır çala-çula
Sağdan dön çapaq sola
Gül kimi cavanları
Çürütdü qızıl qala.

Pərdədə deyir biri
– Kim ölmüş, kimdir diri?
Axşamdı, lampa yanır
Görünür yarın yeri.

Köpəklər ala-bula,
Xan qala, xatun qala
Hər axşam neçə cavan
Ötürür qızıl qala.

Analar edərlər ah,
"Evin"dir işgəncə gah.
Şəhidlər üstə baxın
Təxtini qurubdu şah.

Bir yanar cəhənnəmdir
O qorxunc, qanlı "Evin".
"Evin"i quran namərd
Yıxılsın görüm evin.

Payızdır dərin yara
Gəl unut, gül bahara
Qulaq ver o taylarda
Nə gözəl oxur "Sara".

***

Çıraq yandır, ocaq qur,
Kor yuxudan bircə dur!
Qoy əməyin dağıtsın,
Yurdumuza qızıl nur.

Batma qəmə, ağlama,
Ürəyimi dağlama.
Qoy bağrımdan qan axsın,
Yaramı sən bağlama.

Əyil-əyil, öp məni,
İstər ürəyim səni.
Sənsiz neylər xatirim
Gülüstanı, çəməni.

Sən bir ulduz, günəşsən
Ruhumda bir atəşsən.
Yada varsan, qurtarmam,
Al qanına bulaşsan.

Dağlar uca, göy uca,
Qonur bir quş ağaca.
Yurdumuzda çox şikar
Tüstüləyir hər baca.

Xalça toxur gəlinlər,
Dənə dolur əkinlər,
Gülləndirir həyatı
Dünyada sən kiminlər.

Getmə günəş, bir dayan,
Sənsən gülləri açan.
Sənsiz dünya qaralar
Parıldamaz asiman.

KEÇƏN GÜNLƏR

O günlər ki, sarmaşıqlar divardan,
Saçlarını bizim bağa tökərdi.
O günlər ki, son baharın günəşi
Buludlardan işıq dağa çəkərdi.

O günlər ki, sular ipək pərdədə,
Anlaşılmaz, dərin sözlər deyərdi.
Sən oxurdun titrək səslə, səsində...
Ayrılığın yorğun səsi titrərdi.

Hələ o gün solmamışdı Urmidə,
Nilufərlər, axan sular başında,
O günlər ki, mən bir tazə gənc idim,
Sən də bir qız, on dörd, on beş yaşında.

Sənin iri gözlərində yanardı,
Hələ o gün, eşqin sönməz rəngləri.
Bir baxışla yanaqların pörtərdi,
Deyəmməzdim: – Gözəl, bircə bax bəri.

Yadındamı, bir gün səhər açarkən,
Səbətlərlə dərdik yaqut üzümlər?
Bir il sonra içdik vəslin badəsin,
Ay doğarkən, büllur camda, ey dilbər!

Xəzan oldu... xəzan bilməz Urmiyə!
Söndürdülər elin yanan ocağın.
Sən də soldun "davudilər" solarkən,
Verməz oldu ellər sənin sorağın.

BİR ƏRƏB SARAYIDIR

I

Bir ərəb sarayıdır, qapılar oyma-oyma,
Önündə mərmər hovuz, üstündə yaşıl asma.
Qübbələr göy çinidən, buludsuz göyə bənzər,
Röya tək aynalarda al-əlvan kölgə gəzər.

Tuncdan bir avizə iki qübbədən asıldı,
Salona zinət verən qırmızı bir xalıdı.
Minalı qəndillərdən tökülür altun işıq,
Hovuzun sularında işıqlar qırıq-qırıq.

Ud çalır səmra bir qız, gözəldir, yoxdur əşi,
Xəlifə məsənd üstə, seyr edir uca ərşi,
Açılır hər tərəfdən qapılar birər-birər,
Görünür rəqqasələr, biri ağ, biri əsmər.

Ud səsi ucaldıqca başlanır ərəb rəqsi,
Şənlədir Xəlifəni qızların incə səsi.
Sanki ay tülu edir, pərdələr açılınca,
Görünür gözəl saqi, şəhla göz, boyu uca.

Diz çöküb şərab tökür büllurdan qədəhlərə,
Xəlifə məbhut qalır baxdıqca o dilbərə.

II

Bir aydır vahələrdə çöllərdə külək əsir,
Ac qalıb, susuz qalıb, hər yerdə qəbilələr.
Əmirin adamları yol kəsib, soyur karvan,
İstəyir ağır vergi bədəvi yolçulardan.

Hər yerdə yırtıq çadır, hər yerdə çoraq kəndlər,
Hər yerdə solğun bostan, hər yerdə quduz itlər.

Şəhərdə nə bir həkim, nə də bir məktəb vardır,
Bu zəngin məmləkətdə ellərə ərsə dardır.
Satılıb əcnəbiyə ölkənin sərvətləri
Millətə divan tutur şapqalı bir sərsəri.

Ellərin var yoxunu oğurlayır hər gün əmir,
Bir xoruz oğrusunun Mir Qəzəb əlin kəsir.
Hər gün bir tufan qopur, dünyanı zülmət bürür,
Min ildən qalma qanun ölkədə höküm sürür.

III

Qəbilə yas içində, sarayda şənlik vardır,
Üfüqsüz bu çöllərdə ellərə ərsə dardır...
Gecədir, yurdlar içrə çörək yox, çıraq yoxdur,
Sarayda lampa yanır, süfrədə yemək çoxdur.

İçilən qızıl meylə qonaqlar dağlaşırlar,
Ən gözəl göbək üçün xanımlar bağlaşırlar.
Yarıdan keçmiş gecə, həqq quşu təsbih edir,
Qaraşın bir gözəllə əmir də qalxıb gedir.

Yatağa girir əmir, sarayda yatır hamı,
Uzanır incə bir əl söndürür qızıl şamı.

KƏNDİMİZDƏ OLUB KEÇƏNLƏR

"Heydərbaba" şairinə

Axşamüstü dağlar bənəg-bənəgdir,
Hər yer göy ot, hər yer güldür, çiçəkdir.
Toz qoparan yolda qoyun, inəkdir,
Bir çobandır dərələrdə ney çalan,
Cingildədən dağı, daşı səs salan.

Günəş qızıl işıq saçır yamaca,
Külək əsir uzaqlardan astaca,
Toxunarkən hər budağa, ağaca,
Gül yarpağı sular üstə ələnir,
Batır günəş, sular qana bələnir.

Bir incə qız gedir bulaq başına,
Çatmış bu il on dörd, on beş yaşına.
Kim vurulmaz gözlərinə, qaşına?
Bu yerlərin odur gözəl bəbəyi,
Çəmənlərin yeni açmış çiçəyi.

Qaş qaralır, ay meşədən baxmada,
Duru sular dərələrə axmada,
Çıraq yanır, hər komada, daxmada.
İşıqlanır qaranlıqda bu gecə,
Toy tutulur samanlıqda bu gecə.

Hay-küy qopur, dam üstündə od yanır,
Görən odu yanğın sanır, aldanır.
Arvad, uşaq, kiçik, böyük toplanır,
Lakin bu od nə xanındır, nə bəyin,
Bu alovlar işığıdır şənliyin.

Aşıq alır köhnə sazın əlinə,
Qoşma qoşur gözəl-göyçək gəlinə.
Al üzünə, zərli-pullu belinə,
Yallı gedir bütün qızlar, oğlanlar.

Gecə keçir, karvan keçir yollardan,
Baxır kəndə uzaqlardan yaradan
Odlar sönür, dağ ağarır, gülür dan,
Lampa yanır yalnız uzaq bir evdə,
Bəzənəkli, təmiz və ağ bir evdə.

Şəfəq düşür qızıl dağa, boz dağa,
Günəş doğur, naxır gedir otlağa,
Təzə gəlin, o da gedir alağa.
Təzə bəy də dağda qoyun otarır,
Baxıb düzə sevgilisin axtarır.

Bir ay sonra isti düşüb yay gəlir,
Biçinçiyə evdən çörək, çay gəlir,
Səhər günəş, axşamları ay gəlir.
Buğda biçir, arvad, kişi tarlada,
Yorur xalqı məhsul işi tarlada.

Oraq düşür işə, sünbül toplanır,
Yel əsərkən al örpəklər sallanır,
Bağda üzüm, şaftalılar allanır.
Arabalar meyvə, buğda gah çəkir,
Kəndlilərin uşaqlar ah çəkir.

Sel suları dərə içrə durulur,
Buğdalardan çöldə qalaq vurulur,
Çay başında xana çadır qurulur.
Xırman üstə gəlir xanın nökəri
Bir cavana deyir: – adə, gəl bəri.

Get Sənəmi göndər xanın yanına,
And içirəm böyük xanın canına,
Göndərməzsən, bulaşdırram qanına.
Xan çadırda bikəs qalıb, tək qalıb,
Ürəyini bikəslikdən dərd alıb.

El içində bu söz düşür dillərə,
Çoban vurur özün suya, sellərə,
Arvad ilə köçür uzaq ellərə.

Anasını kənddə yalqız buraxır,
Palçıq evdə ac və susuz buraxır.

Sakitlikdir, səhər hər kəs yuxuda,
Ərbab gəlir kəndə, həm də kəndxuda,
Günahkarı tutub deyə, qorxuda.
Lakin görür hamı olub biqərar,
Çoban köçüb: "Lələ yoxdur, yurdu var!"

Şallaq vurur anasına çobanın,
Atəş vurur komasına çobanın,
Peyğam verir atasına çobanın:
– Qayıtmazsa oğlun kəndə bu axşam,
Getməlisən qəbrə sən də bu axşam.

Xalq toplanır, qopur yaman fırtına!
Xan bələnir xırmangahda al qana.
Zənn etmə ki, bu dastandır, əfsana.
Alışanda xalqın təmiz ürəyi,
Basar, qırar həm xanları, həm bəyi.

Kəndimizin üfüqləri ayna tək,
Bostanında açar onun gül-çiçək,
Kimsə tapmaz onda nə süd, nə yemək.
Onda olan bütün nemət xanındır,
Bu gördüyün dövlət, həşəmət xanındır.

Təmdən də əsər yoxdur bu kənddə,
Aclıq, ölüm, vəhşət çoxdur bu kənddə,
Xan gözündə kəndli oxdur, bu kənddə.
O ölkə ki, xalq qanına boyana,
Lənət olsun onun daşın qoyana.

Kəndli ərbab körpüsündən keçəmməz,
Bir içim su icazəsiz içəmməz,
Öz əkinin özü üçün biçəmməz.
Madyanlar, atlar, daylar xanındır,
Üzümlüklər, bağlar, çaylar xanındır.

KEÇƏN XATİRƏLƏR

Keçən xatirələr yanar od kimi,
Könlümü yandırar, yanıram hər gün.
Ümid mənə deyir: – Qalx göylərdə uç.
Yas söyləyir mənə: – torpaqda sürün.
Torpaqda sürünmək mənə yaraşmaz,
İşıqlı ürəyə zülmət dolaşmaz.

Qaranlıq gecədir, düşünürəm mən,
Yazda boyanardı bizim göy kövşən.
Heç olmasa gecə evdə, ocaqda,
Lampa gül açardı, yappa yanardı.
Elin toxuduğu fərşə baxarkən,
Palçıq evi insan cənnət sanardı.
Heç olmasa gecə damda yatarkən,
Dan işıqlanmadan gülərdi ülkər.
Samavar qurulub güllü həyətdə,
Süfrəyi döşərdi tazə gəlinlər...

Heç olmasa hər gün qalanıb təndir,
Gül yarpağı kimi çörək bişərdi.
Bozbaş bişsin deyə cavan anamız:
Əyilib təndirə külü eşərdi...

Heç olmasa hər il xırman üstünə
Bəzarlar gələrdi, çərçi gələrdi...
Payızda və qışda cavan qızlara
Uzaq-uzaq eldən elçi gələrdi...

İlk bahar gecəsi evdə yatarkən,
Ay işıq salardı, nəsim əsərdi.
Karvan kənddən çıxıb yüklü, yapılı,
Gün doğana qədər mənzil kəsərdi.

Doğrudur ki, kəndli deyildi məsud,
Həyatımız əsrə uyğun deyildi.

İl keçdi, gün keçdi bir səhər çağı,
Heç çağırılmamış qonaqlar gəldi.
Bizə çit verib və şüşə bilərzik,
Bizdən xalı, xalça, cecim aldılar.
Birisin gətirib ərbab etdilər,
Bizləri də qara günə saldılar.
Çeşməmiz, çayımız qurudu o il,
Aclıq düşdü kəndə, köçdü Kərəmgil.
Biz də köçüb getdik Təbriz şəhrinə,
Şəhərlərdə iş, güc var idi yenə.

Şəhər də bir böyük kəndə oxşardı,
Evləri palçıqdan, yolları torpaq.
Orda qayırardı dəmirçi baba
Biçinçilər üçün dəmirdən oraq.
Şəhərdə işçilər bez toxuyardı.
Dükanda çörəkçi çörək yayardı.
Şəhər ətrafında sular axardı.
Su dəyirmanları işlərdi hər gün,
Şəhərin bağlarında yazda, payızda,
Almanı, alçanı qızardardı gün.

Bir gün ki, Təbrizə ağır qar gəldi,
O "çağırılmamış qonaqlar" gəldi.
Onlar dənizi aşıb gələnlər,
Şərq uşaqlarının dilin bilənlər,
Gördülər ki, boşdu şəhərdə meydan.
Xəlqə çit satdılar, şəkilli fincan.
Un fabriki verib, yatdı dəyirman.
Çeşmələr qurudu düşdü sədadan
Bez toxuyanlar da işdən qovuldu,
Atəşdə yanaraq külü sovruldu.

Yenə necə olsa şəhər içində
Həyat uyğun idi, dinc idi insan.
Çöllərdə oxurdu qızıl səhrələr

Bağlarda bitərdi lalə və reyhan.
Keçən xatirələr yanar od kimi,
Yandırır içimi, yanıram bu gün.
Bu bir dastan idi, yadlara aid,
"Yad" sənə "yaşıl bağ" göstərsə düşün
Bilirsən nə verdi bizə "qonaqlar"?
Aynalı tüfənglər, kəskin bıçaqlar.
Parlaq büllur ayna, çıraq, avizə,
O çıraqlar verdi atəş Təbrizə.

Ellər köçdülər də, boş qaldı yurdlar,
Basqın etdi şəhrə qan içən qurdlar.

Qaradağlı pəri, özün biləli,
Bizim xərab kəndə gəlin gələli,
Bir gün belə onun üzü gülmədi,
Təzə gəlin necə olur, bilmədi.
Yappa yapıb, çaldı hər gün divara,
Biçin biçdi, bostan əkdi ərbaba.
Aclıq çəkdi, korluq gördü dünyada
Soldu gözəl yanaqları bir hava...
Yorulmadan səhər, axşam işlədi,
İnək sağdı, oğlun, qızın bəslədi.
Çobanlarla o da getdi yaylağa
Heyvanların, xanın sürdü otlağa.
Südlü inək ağa üçün bəslədi,
Bir gün ağa çoban qızı səslədi:
– Gözəl çoban, ay qız, bir az gəl bəri,
Sənin nədir adın?
Dedi: – Xanpəri.
– Bu inəklər kiminkidir, sənindir?
– Nə xoşbəxtəm, çobanım da gəlindir.
Yaxşı, amma gözəl üzlü bir qadın,
Buraxarmı evin, işin, övladın?
İsti gündə ayaqyalın, bayırda
Otararmı heyvanları çayırda?
Gəlin bir az düşünərək söylədi:
– Bu sözlərdən sənin muradın nədir?
Bilməzmisən bu ellərdə sən ağa,
Gözəl, çirkin, hamı quldur xanlara?
Xan qaşların çatıb, dedi: – Xanpəri,
Başqasına demə bu cür sözləri...
Yıxar evin, odlar tayan kəndxuda,
Gedər malın, canın bu yolda bada.
Bu nə sözlər? Başa salıb kim səni?
Bu sözlərlə qəmləndirdin sən məni.
Yəqin ərin bu sözləri söyləyib,

– Kəndli quldur, ərbab quldur! o deyib.
Amma Pəri, sənin kimi bir gəlin
Çəkərmi heç acın, çıplağın qəmin?
Burax ərin, o bir fəhlə babadır,
Bel bağlamaq bir fəhləyə havadır!
Uşaqları burax ona, gəl mənə,
Kəbin sallam bağ-bostanı mən sənə.
Zərli məxmər geyib gözəlləşərsən,
Xanımlar tək "Xanlıq"da əyləşərsən.
Sənin kimi Tanrı gəlin yaradıb,
Ancaq mən tək xanlar üçün yaradıb.
Bilməz kəndli gözəl nədir, çirkin nə,
Baxa bilməz xan gözüylə o sənə...
Bilirsən ki, bu ellərdə mən başam,
Zəngin, böyük ağalarla yoldaşam.
Vardır yaşıl bağım, çoxlu heyvanım,
Dünyalarca malım, mülküm, samanım.
Baxma bir az qoca gözə gəlirəm,
O qədər də yaşlı, qoca deyiləm.
Sən bax ki, el gözəlləri hər biri
İstər məni... güldü, dedi Xanpəri:
– Əlbət ki, sən varlı, karlı adamsan,
Heyf olsun bir az sadə, avamsan.
Eşidibsən qızıl, gümüş bu yerdə
Müşkül açar, əlac edər hər dərdə.
Qızıl ilə bağça, tarla alınar,
Yaşıl bağda gözəl evlər salınar.
Qızıl versən gülləndirər su, bağı,
Qız-gəlinlər süsləndirər yaylağı.
Qızıl versən südlü inək alarsan,
Otağına ipək xalça salarsan.
Lakin qızıl gəncləndirməz qocanı,
Bir gənc qadın sevməz qoca bir xanı.
Eşidibsən bu ölkədə, İranda,
Qiymət yoxdur, heyvan qədər insana...
Qızıl, gümüş tilsimli bir şeydir,
Qızıl versən hər şey yoluna gedir.

Lakin könül qızıl ilə alınmaz,
Bir namuslu qadın tora salınmaz.
Heç bilmirəm mən gözələm, ya çirkin?
Düşünürəm, yaranmışam nə üçün?
Mən ərimi sevib, ona getmişəm,
Demək ki, öz muradıma yetmişəm.
O bir igid, şərafətli insandır,
Çox şükür ki, nə bir bəydir, nə xandır.
Uşaqları odur mənə verən pay,
Həyatımda biri günəş, biri ay.
Mən onları dünyalara satmaram,
Bir kaftarın xatirinə atmaram.
Ərim mənim işlər çöldə, zəmidə,
Keçindirər uşaqları, məni də...
Yüz minlərcə onun kimi fəhlələr,
Zəhmət çəkib, buğda əkər, dən döyər.
Barlı ağac əkər, bağda, bostanda,
İpək qurdu bəslər, bəslər heyvan da.
Gülləndirən odur, bu kor dünyanı,
Hər bir şeydə vardır onun bir payı.
Odur tikən işıq evlər, şəhərlər,
Zənginlərə məxmər ipək geydirər.
Baharlarda çiçək açan bağçalar,
Sandıq-sandıq topladığın ağçalar,
Sənin deyil, kəndlinin malıdır,
Xanın, bəyin deyil, elin malıdır...
İnsanlığı quran zəhmət çəkəndir,
Yer yiyəsi ancaq yeri əkəndir.
Ərbab kimdir? – Bir parazit, bir zəli
Qanlar içən, evlər yıxan bir dəli.
Xan qaşların çatıb, eşdi bığların,
Süzdü yaşıl çölü, dağın ağ qarın.
O sözlərdən sanki gəldi özünə,
Baxdı heyran o qadının üzünə.
Söyləmədən bir söz, getdi yoluna,
Heç baxmadan nə sağına, soluna.

Axşam oldu, düşdü yola gölgələr,
Sakit oldu dağlar, daşlar, dərələr.
İnəkləri qatdı Pəri önünə,
Adət etdi daxmasına, evinə.
Gördü daxma qaranlıqdır, sakitdir,
Ev içində sanki soyuq yel əsir,
Uşaqların ikisi də yatıblar,
Başlarını bir-birinə çatıblar.
Gördü əri qayıtmamış zəmidən,
Nə bir içim su var evdə, nə bir dən.
Qab götürdü getsin bulaq başına,
Onu gördü yoldan keçən bir aşna.
Qəmli-qəmli dedi görcək Pərini:
– Ərbab salıb buzovluğa ərini.
Bu xəbərdən qəlbi bir az sıxıldı,
Bir inəyə toxunaraq yıxıldı.
Başmaqları çıxıb, həm də söküldü,
Bəsti sındı, suyu yerə töküldü.

Payız bitdi, saralmışdı yarpaqlar,
Boşalırdı yavaş-yavaş yaylaqlar.
Çən basırdı səhər, axşam dağları,
Hər gün dağın çoxalırdı ağ qarı.
Bir səhər ki, günəş dağlarda yandı,
Kəndimizdən qəmli karvan yollandı.
Bir boz dəvə üzərində bir naxoş,
İki eşşək, biri yüklü, biri boş,
Yük dediyin cındır yorğan, bir mis cam,
Sınıq lampa, iki uşaq... vəssalam...
Eşitdim ki, yoldan keçən qaranquş,
– Bunlar dedi, kəndimizdən qovulmuş.

YOLÇU

Nə boran var, nə duman,
Qarlar üstə qızıl qan.
Şaxta kəsir qılınc tək
Dağdan əsir sərt külək.
Meşəliklər iç-içə,
Çayırlar olmuş keçə.
Dağ üstə ay qonmuşdur,
Ay şaxtadan donmuşdur.
Ayda, dağda həyat yox,
Canlıların dərdi çox.
Ay işığı aynadır,
Kölgələri oynadır.
Yolçu yolda qalıbdır,
Yola kölgə salıbdır.
Bir kəndlidir, Sayandan,
Uzaq düşmüş karvandan.
Lütdür, acdır, çox arıq,
Ayağında var çarıq...

Qarlı dağdan yel əsir,
Şaxta qılınc tək kəsir.
Qurdlar, quşlar yuvada
Bir heyvan yox obada.
Meşəlikdə qurd ulur,
Budur, ölüm ov bulur.
O qurdlarla dalaşmış,
Qurdlar önündən qaçmış.
Yarasından axır qan,
Bozarmışdır soyuqdan.
Hər yer işıq, hər yer ağ,
Ömür qısa, yol uzaq.

İsti evdə bəy, xanlar,
Cam ardından baxanlar,

Belə aydan xoşlanır
Yeri bir cənnət sanır.
Bir çox rəssam olanlar
İncə fikrə dalanlar,
Bəlkə qalın meşədən
Qarlı, aydın gecədən
Gözəl şəkil çəkərlər,
Qızıl şərab içərlər.

Kürək içində oturan,
Şer qoşub, saz çalan
Xəyalpərəst şairlər
Aya baxıb söz deyər.
Görər dağa ay qonmuş,
Ay önündən uçur quş.
Görər bulud qar saçır,
Sanki ağac gül açır.

Gecə bir quş səs salır,
Külək əsib saz çalır.
Budur, uzaq bir kənddə,
Yoldan iraq bir kənddə
Sarı işıq görünür,
Yolçu budur düşünür:
Kimlər ölmüş? Kimlər sağ?
Aman Allah, yol uzaq.
Təndir yanır, bişir aş,
Gəlmiş qonaq, yar, yoldaş,
Anam məni gözləyir,
Qızım məni gözləyir,
Yəqin yerlər bölünmüş
Bəxt ulduzu görünmüş.
Bircə qanım axmasa,
Qara ölüm çatmasa...
Qarlar ərir, çay daşar,
Başımızdan gün aşar.

Bağlarımız güllənər,
Səhər olar, gün dönər.
Tarla bizim, bağ bizim,
Çörək bizim, yağ bizim.

Nə boran var, nə duman,
Yarasından axır qan.
Yoldan işıq görünür,
Gözü yaşla bürünür.
Budur, itlər hürürlər,
Qurdlar onu görürlər...
Ay meşədə solmuyur,
Nədən səhər olmuyur?

Duman tutmuş hər yeri,
Kimlər ölmüş? Kim diri?
Qurdlar gecə ulaşmış,
Qarlar qana bulaşmış.
Quşlar yemək axtarır,
Bir şey yolda bozarır.

KİMLƏR SEVİNİR

Dan yeri ölkəsin atəşdə yaxan
Al Yunanıstanda deyirlər qan-qan!
Bizim ölkəmizin sərhəddin aşıb
Xırmanın yandırıb, külün savırıb.
İndi sevinirlər... hənа yaxırlar
Qara bulud olub, şimşək çaxırlar.

Dedilər: – Soltana diş qıcırtdınız
Al bayrağınızda "parladı yıldız!"

Dedilər ki: – Ellər qovub ərbabi
Qılınc çəkdi işçi, yadlar üzünə.
Bağladı qapısın, qurdu qurğusun
İnanmadı "Xan"ın yalan sözünə...

Demədilər: dava yorğan üstədir,
Küşkürtdülər iti üstümüzə ah!
Yatmağa pul da verib, cəllada xəncər
Yadların iti ilə bizi boğdu...

Yaxşı bilirdilər köhnə şeytanla
Döyüşən kimsənin yarası qanar.
Azər eli azad olsa bu gün
Əldən gedər yarin Xorasan bütün.

Odur ki, fars eli ayağa qalxmaz
İmperializmdən haqqını alar.
Qovarlar zindandan "xan"ı meşədən,
Qaça bilməz tülkü bir də meşədən.

O gün dostlarımız bizi unutdu,
Gördülər nədənsə hava bulutdu.
Qara kecə gəldi, görünmədi ay,
Düşmanlar şəhərə saldılar haray.

Yad əlinə düşdü şəhrin açarı,
Oğru istər əlbət şuluq bazarı.
Talandı yurdumuz, yandı kitablar,
Şairlərimiz ah, oldu giriftar.

Ölən öldü o gün, ölməyən qaçdı,
Qara zindan xəlqə ağzını açdı...
Bir gecədə söndü yanar ocaqlar,
Qapıldı gənc qızlar, öldü uşaqlar.

Bizim ellərin ah, taleyi döndü,
Yanar dağımızın atəşi söndü.
Başa çatdı "payız", yarpaq töküldü,
Çox başlar kəsildi, qarın söküldü.

Düşmanlar keçmişimi yadına saldı,
Elxanlar acığını bizlərdən aldı.
Səsini çıxartmadı görən al qanı,
Asanmı öldürmək, qırx min insanı?

"Qanlı hadisə"dən kimlər sevindi?
Qırmızı don geyən namərd cəlladlar.
– Bu gün o an isə kimlər sevinir
– Arpaya cürdəyin, hiyləgər yadlar
Sevindi kimlər? Xain məmurlar,
Savadsız "ustadlar", əski fərraşlar.
Yad dostu "şairlər", quldur hakimlər,
Bir soğana yüz baş kəsən o başlar,
Daha kimlər, daha kimlər sevindi –

Xəlqi talayanlar, yurddan köçənlər,
Öz əsir elinə şallaq vuranlar.
Qızıl piyalədə al qan içənlər
– Kimlər sevinirlər "Qanlı payız"da?
Tülkü ingilislər, tacir yankılar.
Daha kim sevinir bu qanlı gündə?

Yad əlilə təxtə çıxan hökmdar.
Bu gün sevinən, sabah döyülər,
Buludlar çəkilib, günəş görünər.
Millət həqqin alar, düşmənin qırar,
Dəyişər əlbət ki, belə rüzugar.

Yanar günlərin də ömrü az sürər,
Gül açar yurdumuz, günümüz gülər,
Bu "yas günü"bir gün toy olar bizə,
Qonşu elimizdən gələr elçi Təbrizə,
Uşaqlarımız oxur ana dilini
Şair də alqışlar Azər elini.

NƏDƏN

Verərsə çiçək
Baharda vərk
Qurumuş ağac,
Verməz gül-çiçək.
Çürük qəfəsdə
Çırpınır ürək
Piranan cismin
Naqqaşı durur!

Kimsə boş yerə canından keçməz,
Şirini qoyub, zəhərdən içməz.
Qovulmayan heç yurdundan köçməz,
Zamanın hökmü, sayağı budur.

Nədən nəsim şimaldan əsməz?
O taydan bizə qonaqlar gəlməz?
Qardaş-qardaşın halını bilməz?
Bu nə ruzigar, nə zəmanədir?

Sevgilim məni nədən atıbdır?
Aşnalıq duydum "yad"la yatıbdır.
Saxsıya parlaq gövhər satıbdır
Bu nə hekayət, nə əfsanədir?

BİR AL GÜNƏŞ DOĞDU SƏHƏR

Mən bir lirik şair ikən
"Gecə yatmaz" şer yazar.
"Eşqin" yeddi şəhərini
Seyr edərək yoldan azar.
Buludlarda dolaşaraq
Yerdə xəlqi görməz idim.
Daraların şərabından
İçmiş idim, içim-içim.
Xəyal mənə göstərərdi
"Yaşıl bağ"ın qapısını.
Ellər içrə gəzməz idim
Gördüm xəlqin yapusunu.

Dünya mənə gümüş rəngli
Bir sərab tək görünərdi.
Dəli könlüm üfüqlərdə,
Bir quş kimi sürünərdi,
Gecə vaxtı "sayələr"lə
Edər idim razı-niyaz,
Üsyan marşı oxurkən xəlq,
Mən çalardım başqa bir saz.

Bir al günəş doğdu səhər
Azər yurdu çiçəkləndi.
Mən də bir az oyanaraq,
Gördüm eli, gəzdim kəndi.

Qopdu tufan, coşdu sellər,
Sürüklədi düşmanları,
Qovdu qurdu qovar kimi
Ağ insanlar xaqanları.

Mən də qoşdum günə sarı
Xəlqin dərdin görüb yandım.
O günədək görmədiyim

Bir çox şeylər görüb qandım.
Bildim ki, xan düşmanıdır
Zəhmətçəkən insanların.
Bildim kimlər baisidir,
Hədər axan al qanların.
Bildim ki, xan pənahıdır,
Sövdəgərin, feodalın
Bildim nədən gəzər işçi
Qış çağında ayaqyalın?

Bildim "qəzəl yazan şair"
Həqiqətə pərdə çəkər.
Xəlqin şirin şərbətinə
Namərdliklə qatar zəhər.

Mən də yazdım ellər üçün
Oxusunlar oğlan və qız

Lakin tufan qopdu nədən
Kölgələndi dağlarımız.
Təxtə çıxdı yeni firon
Ağız açdı zindan bizə.
Gəldi cəllad sürüləri,
Həm Urmiyə, həm Təbrizə.
Öldürdülər cavanları,
Yandırdılar tayaları.
Qırğın düşdü el içinə,
Ac qaldılar qoca, qarı.
Ölüm çökdü bir bulud tək
Dərya-dərya qanlar axdı,
İmperializm xan əlilə
Bir çox yurdlar basıb yaxdı.

"SAZIMIN SÖZÜ" ŞAİRİNƏ

I

Sən ey əziz Qaraçorlu,
Qara günün qızıl günü.
Bilirəm ki, bu həyatda
Zülmət deyil istədiyin.
Zindan səni çürütdüsə
Çürümədi tunc biləyin.

Bir zamanlar el bəyidin.
Bu gün elə yoldaş oldun
Marağadan köçüb gəldin
Bizim elə qardaş oldun.

Yerin yaman kölgəlikdir,
Pərdəni çək, zülmət çöksün.
Ucalanıb göylərə bax
Xəyalının quşu uçsun.

İstidir çox, papağını çıxart görək.
Gətir qızıl kuzələrdə
"Səhənd ağa" suyun içək.

Bezdik "Şiraz şərabından"
Omu bizi sərxoş qılmaz?

Sənin şerin oxuduqda
Gələr həmən könül vəcdə.
Onun da bir uzaq diyar
Qızıllanar pərdə-pərdə.

Budur dağlar ətəyində
"Səhənd ağa" göbəyində
Qışın artıq rəngi qaçıb.
Ot göyərib, güllər açıb.

Alaçıqlar qurulmuşdu
Hər kəs deyir, hər kəs xoşdur.

Gün düşübdür çadırlara
Bulud gedib indi hara?
Nə suyu qədər, nə də isti
Qab-qacağın cingiltisi
Gəlinlərin incə səsi
Uzaqlardan duyulmaqda.

Hər il bizim yaylaqlarda
El obalar çadır qurar.
Gün batanda hər kəs yatıb,
Gün çıxanda hər kəs durar.

Çoban gətirər sürüsülə
Qızlar sağır inəkləri.
Analar da beşiklərdə
Yatırdarlar bəbəkləri.

Ocaq yanar, bişər çörək,
Tazə çörək açar çiçək.
Cavan qızlar su daşırlar,
Gəlinlər də dəzgah qurar.
Güllü cecim toxuyanda
Şair ona qoşma qoşar.

Yerlər, göylər yaradanın,
Çay, çəmənlər "Böyük xan"ın
Uca dağlar səbzəzarlar
Axar sular bulunubdur.

El sürüsün otararsa
Verməlidir otlaq haqqı.
Elçi gəlsə o cüvara
Qarnı yoğun "sərvan"lara.

Verməlidir oba gərək,
Ayran, kərə, tazə çörək.

Beləliklə, yaz qurtarar,
Dağ başına qar da yağar.
Yarım qarın, arğın, yorğun
Ellərimiz onda artıq
Yığışdırar çadırların
Bütün yazın zəhmətləri
Doyurmaz da qarınların.

Yazda yarı çıplaq gəzən
Yenə yarı çıplaq gedər.
Yaylaqdakı əməklər ah
El-obaya verməz səmər.

Yaylaqlardan oba köçər.
Xan evində yeyər, içər
Bir gün burdan o da köçər.

II

"Qaraçorlu!"
Dastan yazdın.
Dilə düşdü,
Sənin adın.
Bir gün artıq
Xizruların
Haləsinə
Çıraq yaxıb asdın igid,
"Dədə Qorqud" əfsanəsin.
O dağının incisiydi.
İnciləri düzdün sapa.
Sən "Sazımın sözü"n qardaş
Aydın gözə verdin çapa.
El oxudu o dastanı,

Seyr elədi gülüstanı.
Sən ucaltdın başın elin,
Yaxşı kəsdin düşman dilin.

Kim deyər ki, "Dədə Qorqud"
"Şahnamə"dir?
O keçmişdən hekayədir.
Xanlar onda at oynatmaz,
El obaya divan tutmaz.
Alaçığa gəlir çoban
Xanlar ilə içir ayran.

Zəngin olsa xanlar yenə
Məddahın dəyil şaha
Nə qəsri var, nə dərgahı,
Pərdəşin olmamışdır.
Xan xatunu
O çadırda naxış toxur.
Körpəsinə
mahnı oxur.

Orada qadın "ilan"dəyil,
Məhəbbəti yalan dəyil.
Təxti rəvan bilməz nədir,
Ata minər, dağlar aşar,
Bulaqların suyun içər,
Yar yolunda candan keçər.

"Şahnamə"də
Şahın bürkü "günəşdir".
Təxti mavi bir asiman
Orta zinin kölgəsidir
Cənnət onun yaylağıdır.

"Dədə Qorqud" kitabında
Xan bir sadə insandır ki,
Başda tüklü papağı var,

Çadırı var, ocağı var,
El-obadan iraq gəzməz,
Cəzirləri yıxıb əzməz.
O insaflı bir mərddir ki,
Düşmanına silah verər,
Danışdırsan doğru deyər.
"Şahnamə"də
Yaralanan bir pəhləvan,
Həsrət ilə burdan köçər.
"Dədə Qorqud" kitabında
"Dəli Domrul"
Əzrailə qılınc çəkər.
Yad deyir ki,
Sizdə "Divan şairi" yox.
Türkün, Sultan və ahi yox.
Qoy olmasın!
Şairlərin divanları
Xizruların dastanları
Yadın olsun
"Dədə Qorqud" bizə yetər!

Səlcuqilər olmasaydı
Daş-daş üstə qalmaz idi.
İran adlı bir məmləkəti
Tarix yada salmaz idi.

SON SÖZ, SON SAZ

El şairi Mahmuda

Quraqlığa tutulandan, baba diyarında,
Mənim də köşənimin ilk baharı solmuşdu.
Bulaqları quruyub, quşları sükut etmiş,
Çiçəkli kəndimiz, ey vah, xaraba olmuşdu.

Uzun və xəzanlı illər, başımdan aşdıqca,
Sözüm bitib, sazımın telləri qırılmışdı.
Qanadların mənə gərdikcə namurad bayquş,
Elə gəlirdi mənə, yay dumanlı bir qışdı!..

Mənə ölüm şəfəqi göz dikəndən ah!
Zülm içində nəfəsdən düşüb, boğulmuşdum!
Həvadisin o qara daxmasında, tabutda,
Nədənsə qupquru bir mumyani olmuşdum.

Sənինlə qürbət elində görüşdüyüm dəmdən,
Əlinlə nəhs tilsimin qırıldı pərdələri.
Buludların arasından gün işıq saldı
Qapım açıldı və düşdü qızıl işıq içəri.

ZƏNCİ

Günlərin bir günündə ey qara zənci,
Palmalar altında rəqs edərdin sən.
Ananas və banan toplamaq üçün
Meşələrin içinə gedərdin sən.

Qursarlar bir gecə dəmir ataraq,
Soxuldular sənin yaşıl yurduna.
Komanı yandırıb atəş açdılar,
Boyadılar eli qızıl qanına...

Bir neçə sərsəri əldə qırmancla
Səni döyə-döyə önünə qatdı.
Hollandiyalı tacir, yengi dünyada,
Bir "zər xrid" deyə – qızıla satdı...
"Yengi dünya"da o vaxt meşəlik idi,
Yerləri bataqlıq, havası isti.
Yalnız hinduların komalarından
Ocaqlar yanarkən çıxardı tüstü.
İspaniya "don"ları gəlincə ora
Hinduları qovub sürgün etdilər.
Çal saqqal kişilər məsih yolunda:
"Əngizyisunçilər" yolun getdilər.

Sənə gəlincə o ingilislərdi,
Başqa cür düşündü... nəfini kovdi.
Pambıq tarlasında səni işlədib,
Yeri gəlincə də ətini diddi.

Hər ay gəmiçilər zənci daşıyıb
"Corciya"ya gələn ağa satdılar,
Sənin əsirin elin hər gün çoxalıb,
Yeni əsirləri sənə qatdılar.

Siz Amerikanın qara torpağın,
Öz əməginizlə cənnət etdiniz.

Haqsızlıq görüncə ağ ağalardan
Üşəndiniz bir az, nifrət etdiniz.

Əski zamanlardan köləymiş qara,
Xanların dövründə, zəngin gözündə
Köləliyi rəva görmüşdü dinlər,
"Kölə" ləfzi çoxdur şair sözündə.

Doğrudur ki, Səlcuq Qulam olurmuş,
Sarayda, əmirlə şərab içərmiş.
Lakin qara zənci yakıcı gündə
Bostanı suvarıb, alaq biçərmiş.

Yenə də Şərqdə bəxtiyar idin,
Sənə ağ qızını bağışlardı xan.
Qərbdə ağ qıza baxıb güləndə
Səni "kukslakçılar"asdı ağacdan.

O nəcib irqdən olan ingilis,
İşi düşəndə sənə qucaq açar.
Bir ömür səndən iş çəkər nəhayət:
Qocalanda səni it tək qovalar.

Sən vəhşi adamsan, ağın gözündə...
Afrikadan gəlmə yabanı kolsan.
Səni hankı yerlər ora aparıb?
Qara günlü edib... zavallı insan.

Döyüşlərdə səni ağlar qırdılar,
Döyüş olmayanda səni güllələr.
Qızını qaçırdıb, komanı yıxar,
Qanın axar olar, əməyin hədər.

Al bayraq qovzadın meşəliklərdən,
Əski sahibləri qovaladın sən.
Səni yuxlatmışdı Qərbin cadusu,
Tilsim qırıldı, gözün açdın sən.

Oyanıq ol, aman qara qardaşım!
Öz yaşıl yurdunun qayğısına qal!
Əsgi qursarlar geri dönərlərsə
İlanı, qaplanı canlarına sal.

Onların əlində odlu silah var
Sən də silah götür, sən də aç atəş.
İllərcə zülmətdə qalan ölkəndə
Yırtılsın pərdələr parlasın günəş.

HƏYATDA ÜMİD

Ümid əgər bu qaranlıq cahanda olmazsa,
Kim axtarardı həyatın şəfəqli çeşməsini?
Həyatın eşqi əgər olmasaydı, xatirədə
Ölüm kəsərdi sevincin gözəl və şən səsini.

Ümid, köhnə şərabdır ki, xəlqi sərxoş edər,
Ümid ilə qara dünya səfalı cənnət olar.
Ümid ilə gül açar, bağçalar və quşlar oxur,
Yaşıllanar quru çöllər, axar, coşar çaylar.

Bəşər gözün açar, açmaz gülər, gülər dünya
Üfüq bir ayna kimi parlayıb da şövq salar.
Ümid qəmli könüldə işıq saçan gündür,
Görən işıqlı günü, görməyib də kim ağlar?

Həyatı anlamayıb kim ölümlə qəhr olsa,
Sovurur cahan, gül açarkən baharı iblisin...
Həyatı anlamayan zülmə baş əyər, heyhat!
Həyat zülmün odunda yanıb olur bitgin.

TEHRANIN YAY GECƏLƏRİNDƏ

Gecədir... Yay gecəsi,
Hava tutqun və cəhənnəm kimi yerə şölə saçır,
Lampanın tozlu və al nuri bu mənhus gecədə,
Şairə rəhbər olurkən də, cününə yol açır...

Çək yana pərdələri, aç qapıyı,
Bulud altında görüm, tozlu ayı...
Lampayı gəl apar, ay tazə gəlin!
Qoy qaranlıqda, xəyalım ucalsın, uçsun!
Könlümüz oldu qərib ölkədə xun!

Hanı bizlərdə olan sadə gecələr?
Aynaya bənzər üfüq, qırmızı gün, ali ay?
Yoxmu bu ölkədə bir zümzümə çay?

Bu yerin köşəni yox, daşlı və qumlu çölü var,
Daşlı çöllərdə gəzər çox cavanlar!

Gecədir... Yay gecəsi,
Gəlmişik Təbrizə biz...
Can verir şəhərə nəslin nəfəsi,
Ucalır ay, bu qızıl dağlardan,
Dağılır hər yerə gül rayihəsi,
Kölgədə gizli qalan bağlardan.

YAĞMASAN DA GURULDA

I

Axma irmaq, mən də sənə yoldaşam,
Götür məni, elə bil ki, bir daşam.
Sən dağların ağır yükün çəkirsən,
Bulaqların sərin suyun içirsən.
Daş dəyiləm, yarpaq qədər yüngüləm,
Yolun üstə düşən tozlu bir güləm.
Bir damcıyam, buludlardan enmişəm.
Bir kölgəyəm, kənarına sinmişəm...
Axma irmaq, dayan, sənə söyləyim,
Budur mənim iltimasım, diləyim:
– Bağlıyam mən sənin doğma elinə,
Vermə məni, aman düşman əlinə...
Qanadına alıb gəzdir hər yanı
Götür məni qanadların qurbanı,
Orda qızıl güllər, burda qızıl qan,
Gün batmışdır burda, orda açır dan...

II

Mən yumaraq daldım gecə dəryaya,
Dərya deyil, bir dəhşətli röyaya...
Axıntılar səsin bir an dinlədim,
Pərdələndi dəniz, artıq bilmədim.
Kölgə düşür, kürək səsi yüksəlir,
Bir balıqçı uzaqlardanmı gəlir?
Yoxsa suda ay işığı tərpənir?
Balıqlarla bir əl su içrə enir.
– Bu əl kimin? Kimdir məni qurtaran?
Burax, – gedim, – dəniz coşub, istəyir qan!
Qurban deyə dalğalara at məni
Ya istərsən Xəzrilərə sat məni...
Unutmuşsan əcdadının adətin?
Əsgilərin ibadətin, bədətin?

O zaman ki, Xizr qurban atardı:
Oymaq, oba muradına çatardı.
Bax gör sənə yalvarıram ey mənci,
Bir kölgə san məni, yaxud bir inci...
İstəyirsən suya burax batım da,
Ya sat məni, son günümə çatım da...
Atma məni ümmanlara, demə qul,
Dostluq ilə düşmənçilik ayrı yol.
Qoy şerimlə otlaqlarınız gül açsın.
Bir ulduz da göyünüzdə nur saçsın.
Qoy buludlar dağ ardından yol kəssin,
Şimallardan sərin-sərin yel əssin.

Qaval səsi uzaqlardan yüksəlir,
Qoyun, keçi yaşıl otlaqdan gəlir.
Bir yurddayam, mavi ətir tək boyunda
Şahidəm mən bir gözəlin toyunda.
Xalça ilə bütün ev, yurd bəzənib,
Yol üstünə gül yarpağı ələnib.
Aşıq çalır sazda Xizr nəğməsi,
Nə gözəldir Xizrlərdə saz səsi.
Məxmər donlu, gen ətəkli gözəllər,
Yan baxaraq qonaqları süzərlər...
Rəqs edərkən qızarırlar, solurlar,
Bir baxışla həmin aşiq olurlar.

Mən bir qonaq, ev sahibi mehriban,
Qonaq sevən olur, əlbət, türkman.
Sən gündüzü danıb, demə gecədir,
Görürsənmi qonaq sevmək necədir?
Bir de görüm, odumuzla yandınmı?
Bəxtiyarkən öz elini andınmı?
Nədən bizi odda görüb gəlmədin,
Yolçulardan sorub, soraq gəlmədin?
Alaçığım yandı, gördün tüstüsün,
Yaxlaşmadın... boğdu məni qara gün!
Heç olmazsa mayak kimi parılda,
Yağmasan da şimşək çaxıb gurulda!

KABUS

Bizə yad kabus bax kölgə salıb,
Bu ölümdür, bu ölüm kölgəsidir!
Yadelli olsa da xoş səsli, yenə,
Bizcə ərbab səsi, cəllad səsidir...

Evləri yıxsa və qan töksə də yad,
Ona kim şümr, sitəmkar deyəmməz.
Zülfünə kimsə toxunmaz və ona:
"Gözün üstə qaşın var" deyəmməz.

Yad elin kabusu qorxunc degil,
Sadə insanlara qardaş kimidir...
Amma, gündüz bizə gün vermiyərək,
Ayaq altında gecə daş kimidir.

Yadın ol xanlığı, aləmdə inan,
İmperatorluğun iyrənc üzüdür!
Bu qədər həşəmətə baxma, sən onun,
Çünki bir köşkülüdür, bir özüdür.

Qara kabus bizi ah boğdu oğul!
Ayrılıq saldı o ellər içinə
Alovu ilə evimiz yandı aman!
Qoymadı kimsə ki, getsin biçinə.

Qurudu çaylarımız, yandı çəmən,
Yamyaşıl bağlarımız oldu xəzan,
O bizim al günəşin örtdü üzün
Bürüdü zülmət, işıldanmadı dan!

Xanlığın baxma donu qırmızıdır,
O bu, ya el obanın al qanıdır!
O bizim varlığımızla döyüşər,
O bizim şerimizin düşmanıdır.

SUDA İŞIQLAR

"Bağmeşə"dən iraq, "Sarı dağlar"dan,
Günəş doğur səhər, rəngi qızıl qan!
Onun alovu ilə, olur nəmudar:
Yarpaqlarda şölə, suda işıqlar.
Əzəli cadudur qırmızı günəş,
Ondadır tufanlar, ondadır atəş.
Qanımızda vardır atəşdən əsər,
Bizi tufanlara, oda sürüklər...
Yurdumuz "Od yurdu", günümüz odlu,
Həyatımız qanla, atəşlə dolu!
Qanda, od olmasa qızışmaz ürək,
Günəş yandırmazsa açılmaz çiçək.

POEMA

I

Bürümüş kəfənə torpağı
Qar... quşbaşı yağan ağır qar.
Meşələr içində hay salmış
Dağdan qopub gələn rüzgar.

Gecə qaranlıqdır, kor kimi
Ağır qar altında daxmalar.
Onlarda yaşayan aclar da
Ağır-ağır nəfəs alırlar...

Qara bulud qaplamış göyü,
Ac ölüm bürümüş hər yeri.
Zülmətlər içində boğulan
Kənddə sanki yox bir diri!

Hamı ölmüş, hamı susmuşdur,
Matəm ürəkləri dondurmuş!
Hakim olmuş bu yerdə artıq
Bir qara ölüm və bir də qış...

Sınıq lampa aydınladırsa,
Solğun uşaqların üzünü,
Pəncərəyə çırpan küləklər,
Kəsirdi onların sözünü.

Dünya cəhənnəmdir onlara,
Palçıq daxmalarda dar məzar,
Röya bir cənnət tək zülmətdə
Onlara aydın bir yol açar.

O yol ilə gedər-gedərlər,
İçin fəlakətin zəhərini

Uçurumları keçə-keçə
Hər kəs tapar axır qəbrini...

Onlar ölkəyi gülləndirən
Bir yığın zəhmətkeş insandır,
Onların yeməyi bir çörək
İçdikləri irindir, qandır.

Onlar ərbabların qulları,
Onlar xanın südlü inəyi,
Onlar düşmənidir bəylərin,
İnsanlığın da göz bəbəyi.
Bir gün gələr qışdan, borandan
Yaman gündən qalmaz bir əsər.
Güllənər azadlıq baharı
Şimallardan sərin yel əsər.

Yağan qar çay olub və daşar
Çeşmələr şiridar bağlarda.
Qız, gəlinlər çıxar yaylağa
Qurular çadırlar dağlarda...

Bu yerin sahibi əkinçi,
Qovalar xanı, ərbabları.
Sürər çobanları, ellərin
Sürülərin günəşə sarı.

Nə qara daxma, nə də zindan
Nə də bir yeskən sular qalmaz.
Gülər zəhmətkeş üzünə:
Yaşıllanan bahar, qızıl yaz.

II

Axşamdır, Savalan ardında
Qürub edir günəş bir daha.
Yanır buludlarda son işıq
Sarı solğun bir ay da.

Palçıq daxmaların üstündə...
Ucalır... Odlanıb yanır...
Hələ çöldə güllü yoncalar
Qurd, quşu qoynuna alarkən:
Məzar tək, ağzını açan, dar
Daxmalar çağırar insanı!..

Zülmət bir pərdə tək çökərkən
Sakitlik evləri çulğalar,
Çox keçmədən sonra işıqlar
Gecə gözətçisi bir bayquş
Meşələr içində səs salar.
Əsir soyuq külək şimaldan,
Sayrışarlar altun ulduzlar,
Yerdə qara ölüm yol açar!
Ucalar zülmətdə nalələr,
Aclıqdan kəndli can verər...

Dan yeri sökülər... al səhər
Çayırlara göz yaşı tökər.
Boz torağaylar göydə oxurkən
Açılar qapılar o zaman
Neçə diri, neçə ölünü,
Çıxarar qaranlıq daxmadan!..
Dünyadan köçən hər babaya,
Ağız açar o gün dar məzar,
Başqa gün övladı yollarda
Hər bir namərdə o əl açar...

Feodallar hökm sürmüşlər,
Əsrlərdən bəri bu yerdə
Xəlqin əməyin udanlar
Olmuşlar onlara sərkərdə!
Oğlanlar qul, qızlar kənizdir,
İşçi zəlil, ərbab əzizdir.
Zənginə işıq salar şeytan,
Caniləri qucaqlar hər an...
Qan içən, ev yıxan ağalar

Əlbət bir gün yerə yıxılar.
Günəş doğar qanlı buluddan,
Qaranlıq daxmada yaşayan
Əskimiş, çürümüş dünyanı
Təməlindən sökər və yıxar.
Səadətin bağı gül açar.
Və al günəş yerə nur saçar.
Kəndli də yerləri sürərkən
Gülləndirər yeni dünyanı,
Qovalar əkinçi ağanı.

Yağan ağır qardan, qaranlıq,
Və palçıq daxmalar uçurlar.
Bürümüşdür yeri ağır qar
Ağır yük altında ağaclar.
Başlarını yerə əymişlər,
Bu havada, qarda kim işlər?
Bürümüş qar yeri kəfən tək,
Budaqlarda açılar ağ çiçək.
Yolunu itirər gecələr,
Bu qarda, boranda, qurd, köpək.
Hər yerə baxarsan qardır qar,
Çiçək açmış kimi ağaclar.
Ölüm sükutu çökmüş yerə,
Hov vurursan tutulur qulaq.
Kölgə kimi gəlir uzaqdan.
Yara-yara qarı, bir uşaq,
Qaralmış şaxtadan ac, çıplaq...
İsti otağında düşünür,
Donuz kimi yağlı bir ərbab,
Günbəgün işlər olur çətin.
"Gedir əldən bostan, bağ, əkin,
Yağan qardan uçur daxmalar.
Quruyur çıplaq və ac uşaqlar,
O düşünür: Tanrı dünyanı
Əzəldən qurmuşdur bu qərar...
Dünya ancaq zənginlərindir,

Anlamaq hikməti çətindir,
Qoy işçi qurusun soyuqdan
Ölsün!.. Dəyişməsin bu dövran..."

O isti otaqdan göz salır:
Qonşuların daxmalarına,
Dam üstə qalanmış qarına...
Yenə fikir edir, çox düşünür:
Zəhmətkeş insanlardır aclar
(Zəmanə gedərsə bu qərar)
Atəşdən yakıcı olarlar.
Tapdalanan insan, yerlər:
Olur bir yırtıcı canavar!
Eşidir bayırda soyuqdan
Ağlayan uşağın səsini...
Baxır ipək pərdə ardından
Qonşuların daxmalarına,
Dam üstə qalanmış qarına.
Mırıldanır, köpək kimi o,
Qoy ağlasın uşaq, çatlasın!
Kəsilsin nəsli də işçinin,
Qoy qurutsun şaxta uşaqları,
Bu ölkə olmasın...

NİL ÇAYI MƏNZUMƏSİNDƏN PARÇALAR

Aşın, daşın, deyə, Nilin suları,
Çiçəklənsin Misrin tozlu baharı.
Qoca kahin günahlara batardı,
Bir gənc qızı Nil çayına atardı.
Çayda üzən timsah udub nigarı,
Azalmazdı o il Nilin suları...
Buğda, pambıq adam boyu bitirdi,
Zəngin olan muradına yetirdi.
Lakin taxıl bol olsaydı yenə də
Yetişməzdi əkinçiyə bir heybə,
İstər çəbti, istər yunan qulları.
Ac qalmaqdan olardılar sap-sarı.
Fəllahların göyçək, şirin qızları
İnsanlığın yaşıl bağının barı,
Yalın ayaq gəzərdilər hər yanı,
Sulardılar xırmalığı, bostanı.
Verərdilər yem quşlara, heyvana,
İpək, kilim toxurdular Firona.
Qabıq qoyub qızğın günəş önündə
Sevinməzdi könülləri bir gün də.
Qara çörək, sirkə yeyib beləcə,
Quru yerdə yatardılar hər gecə.
O qızların ürəyində gül açan,
Arzuların bağı olardı xəzan.
Lakin... çirkin qızı hər axşam
Yaşıl bağda edərdi naz və xürram.
Geyinərdi ipək, zəri əlbəsə
Sərf edərdi vaxtın bəzəgə, süsə,
Fəllahları o bir heyvan sanardı,
Gözəlləri qısqanardı, yanardı.
Eşitmişdi kahinlərdən o...
Onun üçün tutub bu yer, göy qərar,
O güləndə açar bağda çiçəklər,
Onun üçün sular cərəyan edər.

Firon, onun ulu babası hələ
Qəzəb etsə düşər yerə zəlzələ.

O günəşdən ayrı bir yermiş, bir alovdur,
Ona baxan olar həmən gözü kor.
Misir onundur, Həbəşistan onundur,
Çaylar, bağlar, meşə, bostan onundur.

Neçə min il keçmiş o gündən bəri,
Qaralmışdır zəmanənin dəftəri.
Dəyişmiş yatağını Nil çayı,
Quma batmış, Fironların sarayı.
Mumiyalı şahlar, yalnız qalmışlar,
Daş tabutda dərin xəyala dalmışlar.

Şam çölündən bir gün günəş çıxanda,
Göy ərşəlim sərməst yatan zamanda,
Siçanlar tək, yavaş, səssiz, bixəbər
Ağ əsgərlər dərvazadan girdilər.
Qorxu düşdü nəntilərin içinə,
Gedərməz oldu, o il bir kəs biçinə.
Yandı şəhər, qəsəbələr alındı,
Viranələr üstə namaz qılındı...
Xəncərləndi bir çox qızlar, qadınlar,
Xalqın palçıq evi oldu tarimar,
Uşaqları diri quma gümdülər,
Qoymadılar nəfəs çəkən bir nəfər.
Qəsrlərdən, Fironlardan yadigar,
Yaşıl bağlar, uca mərmər saraylar,
İpəklərlə bəzənilmiş otaqlar,
Aynadar, gövhər nişan dodaqlar.
Odlanaraq viran oldu, talandı,
Yerlərində qara torpaq qalandı.
Qan dəryası oldu Nilin suları...
Qanlı sular axdı dəryaya sarı.
Ayaqlandı bostanlıqlar, bağçalar,

Məzirələr oldu bütün tarimar.
Bir sənəlik əkinçinin əməyi
Heçə getdi, əldən çıxdı çörəyi.
Başqa dövrə ayaq basdı, o il Misir,
İslamlaşdı, xristian, yaşıl Misir,
Yerdən yeni feodallar göyərdi,
Xalqın artdı, yenə möhnəti, dərdi.
Parazitlər yenə xəlqə baş oldu
Yenə haman kasa, həmən aş oldu!
Cariyələr bürclərdən atıldı,
Gözəl qızlar bazarlarda satıldı.
Lakin olma məyus, dayan bir fəla
Keçər bir gün, nə xan qalar, nə də...
Dəyişməzsə asimanın müdarı,
Dəyişərdi bu dünyanın qərarı.
Yaşıl Misir, Həbəşistan, Zəngibar,
Zülmün qanlı pəncəsindən qurtular.
Nilin qızıl dalğaları nəhayət,
Edər sənin bostanını bir cənnət.
Açar pambıq, sünbüllənər buğdalar,
Ən nəhayət, torpaq fəllahə qalar.
Aşsın Nilin suyu, taxıl bol olsun!
İşıqlı gün, dama, bacaya dolsun...

ANƏMLƏ BƏRABƏR

Bu şeir İstanbul türkcəsilə yazılmışdır

Anəm bana söylərdi, qaranlıq gecələrdə,
Yıldızların altında, bir ahəngli dastan.
Hər yıldızı bir işvəli canan sanaraq mən,
Göylərdə bakardım gecə yıldızlara mən.

Bəzən də bana qaş-göz edən bir sarı koykəb,
Asimandan uzaq, hər gecə röyama girərdi.
Yarpaqların ahənginə bənzər, suya bənzər,
Titrək səs ilə, bir uzun əfsanə deyərdi.

Bəzən də üfüqlərdə yanardı sarı bir ay,
Anəm onun ənvarinə, həsrətlə baxardı.
Mən bal xəyalimlə, fəzalərdə gəzərkən
O sevgili yıldız da səmalərdən aşardı.

Ay nurini yarpaqlara səprər, dağıdarkən,
Bağlarda, çayırlarda böcəklər öpüşərdi.
Dağlardan enib mavi sular ilə o dəmdə,
Müştaq və pərişan kimi, mehtab öpüşərdi.

Anəm bana söylərdi gecə ay işığında,
Həsrətli baxışlarla, bir əfsaneyi saməd!
Ol dəm ki, işıldadı su, ağlardı şəbahəng
Dinlərdik o ahəng şəbi samid də sakit.

Fikrətlərə məhzub, o halətlə qalardıq,
Anəmlə bərabər gecə mehtabə dalardıq.

EY QƏMƏR

Sən hər gecə, o qəmli meşələrin ardından,
Həkimanə baxışla, dünyalara baxırsan...
Lacivərd göylərdə, bir pəri tək uçarkən,
Nədən suya düşüb də dalğalarla axarsan?

Nədir sənin simanda, o kölgəli düşüncə?
Həyatında çəkdiyin, möhnətlərin izimi?
Nə tikmişsən gözlərin uzaq-uzaq yollara,
Görünürmü uzaqda, axıb gedən bir gəmi?

Nə bilirsən ey Qəmər, sən yanarkən zülmətdə,
Hansı gəmi bu yaşıl sahillərə yanaşdı.
Sən çıxarkən pərdədən, yelkən açıb qəhrlə,
Sevgilimin gəmisi dənizlərdən də aşdı.

Yollar uzaq, karvan keçib yoldan bixəbər,
Mən piyada düşmüşəm, yollar üstə sayə tək...
Aç zülfün, at kəməndin, bir gecəlik ey Qəmər!
Ey "Mərsdabə" məni də o gümüşlü bürcə çək!..

KÖLGƏLƏNƏN QIZIL DAĞLAR

Kölgələnən qızıl dağlar görünür,
Yaşıl ipək pərdələrin ardından.
Kimin eşqi yenə məni çıxartmış
Daş ürəkli, nazlı yarın yadından?

Kölgələnən qızıl dağlar, boş qalın,
Sizdən uzaq diyara o gedibdir.
Başqasının əfsununa tutulmuş
Eşqin danıb, aşiqin tərk edibdir.

Qızıl dağlar kölgələnib sönsə də,
Su başında açan güllər solsa da.
Onun eşqi sönməyəcək könlümdə,
Başqasının məşuqəsi olsa da.

Üfüqlərin nilufəri rəngində,
Yenə onun solmaz rəngi görünür.
Altunlaşmış sünbüllərin içində,
Sanki onun ətəkləri sürünür.

ANAM ÜÇÜN

Yelkən öpüşü tək quru yaprağın,
Sükutu titrətdi, durğun suları.
Çəmənlərdə ötən quşların səsi,
Oyatdı könlümdəki duyğuları.

Bir xəyal süzüldü, ağaclıqlardan,
Sular üstə düşüb, kölgə tək soldu.
Keçən baharların rəngləri artıq
Ürəyimdə acı xatirə oldu...

Keçmiş günlər pərdələndi, həyatım
Bir əfsanə kimi, mənə göründü.
Məni sevən anamın, xəyalı, ah!
Bir şəbeh kimi, yol üstə süründü...

Sürün ey xəyal! Sən ey kölgə, sürün!
Tozlu yollarda, ay işığı tək!
Qal torpaq altında, ana, torpaq ol!
Torpağında yetişsin qan rəngli çiçək.

AYIN KÖLGƏSİ

Gümüş kölgə salıb qarlar üzkərə,
Asimanda büllurlanan donuq ay,
Dünya susmuş, eşitdilər meşədə,
Gecə vaxtı guruldayan axar çay.

Əfsunlamış ay dünyayi bu gecə
Yer, göy məbhut, onun səsin dinləyir,
Hər şey sakit, lakin mənim ürəyim,
Sakitlikdə bir saz kimi inləyir...

Əfsunlarsa ay aləmi, könlümü,
Ancaq onun baxışları əfsunlar!
Mən susmaram, dünya bütün susarsa,
Məşğul etməz məni məgər nazlı yar.

Gümüş kölgə salıb gecə məhtab,
Lacivərdi asimandan yerlərə...
Qarın ipək pərdəsində gizlənmiş,
Çayır, çəmən, düzənliklər, dağ, dərə.

GECƏLƏRİN NƏĞMƏSİ

Titrədir gecənin məmmuz əlləri
Atlas pərdələrin saçaqlarını.
Oxşayır nəsimin ipək qanadı
Onun saçlarını, yanaqlarını.

Şəmin şölələri titrərkən suda,
Bir sönük xəyal tək işıqlar oynur.
O gözəl gəzəndə, bir an içində,
Əks edər aynada yaquti bir nur!

Gecədir, işıqlar ərirkən suda
Minalı camda bir xəyal ərir.
Qırmızı şərab o mənə vercək,
Xatirə Hafizin bu sözü gəlir.

Bizim Ərğəvani meydən içməyin
Nə anlar ləzzətin, eşqin, həvəsin?
Mən şərab içərəm, çünki görmüşəm
Mey piyaləsində yarimin əksin!

ARZU

Zülmətin tozunu sehr əlilə,
Ürək aynasından rəf edə bilsəm!
Vəhşi göyərçin tək qanadlanaraq,
Uzaq üfüqlərə ah, gedə bilsəm!

Siyah dalğaların həlqələrində,
Qabaran bir köpük, çırpınan olsam,
Qürub pərdəsində solğun ulduz tək,
Göz yumar-açan vaxt, saralıb solsam...

Titrəşən kölgə tək, bircə görünsəm,
Mavi pəncərənin büllur camında,
Bir parıltı olsam, yarın gözündə,
Sönük bir nur olsam onun şamında!

Bir təbəssüm olsam dodaqlarında
Solğun yanaqların qızıl gül etsəm!
Bir damla yaş kimi, axıb gözündən:
Atlas ətəyində əriyib getsəm...

QRİZANTIM GÜLLƏRİ

Açılmışdı qrizantım gülləri
Xəzan olmuş bağçamızda bir səhər.
İlk baharın qızıl saçlı günündən
Qalmamışdı üfüqlərdə bir əsər.
Quşlar bizim yurdun tərkin qılarkən,
Boş bağlarda könül dərdə dolarkən.

Uzaq eldən gələn gözəl bir pəri,
Qapımızı açıb bizə göründü.
O, ağ ipək geyimli məni görcək
Ay işığı sandım, mənə süründü.
O Naxçıvan bağlarında açılan
Bir gül idi, onun adı Zərəfşan.

Bəzəmişdi o gün, qara telinə,
Al ipəkdən bağlamışdı bir çiçək.
Dedim: – Zəri, dəyişmisən bu günlər,
Bu nə bəzək, nə xəbərdir, de görək?
Dedi sabah böyük bayram olacaq
Gəl, gül dərək, bağçalardan bir ətək.

Bayram tutaq, qızlar gəlsin oynayaq,
Şam yandıraq, çoxlu gümüş şamdanda.
Deyib gülək, gülsün qəmli könlümüz,
Bir həqiqi bayram görsün cahan da.
Əgər quru yarpaq yerə ələnib
Bax, bağçada qrizantım güllənib!

O zamandan keçmiş uzun sənələr,
Bahar olub, sonra yarpaq ələnib.
Unutmaram sevincini o qızın:
Görsəm bağda qrizantım güllənib.

ÇÖL ÇİÇƏYİ

Bir keçən buludun, göz yaşlarını,
Qana-qana içib, açılan çiçək.
Bu quru çöllərdə, açıldın heyhat,
Sənə kimlər artıq nəzər edəcək?
Söylə içirib gəl vahədən kənar,
Açan bir gül ilə olarmı bahar?

Yaxıcı qumların bir bucağında
Bəslərsə də xilqət, atəşin bir gül.
Söylə, nədən dəhrin gülüstanında
Tuş olmadı sənə bir dəli bülbül,
Umma asimandan mərhəmət, gülüm,
Sənə göz dikmişdir, bir qara ölüm.

Nə çəmənlərdə və nə də bağlarda
Gözəllər üçün bir açılan gülsən.
Nə də bulaqların zümzüməsilə,
Zavallı qönçəcik gülmək bilirsən.
Varsa da qan rəngi yanaqlarında
Acı təbəssüm vardır dodaqlarında.

Söylə nədir dərdin, biyaban gülü?
Nədən qumlar içrə sən kök salıbsan?
Düşündürür məni qızıl yarpağın
Yoxsamı eşqidən yadigarmısan?
Yoxsa Leylanın sən, qanın içərək
Qumlarda açdın sən, ey gözəl çiçək!

MEŞƏLƏRİN QOYNUNDA

Yoldan iraq bir yerdə, meşələrin qoynunda,
Su başında qurulmuş, səhər atlas çadırlar.
Çadırların içində, gözəl üzlü kənizlər,
Min cür işrət əsbabı, əmir üçün hazırlar.

Çadırlara döşənmiş zər baft, ipək xalçalar,
Xalçalara səpilmiş qızıl güllər yarpağı.
Gün doğmada, əmir də, bir gül üzlü dilbərlə,
Bağçalar içrə gəzinir, bir yuxarı, aşağı.

Quşlar tək-tək uçurlar, ağacların ardından,
Su səsilə bərabər, qızlar səsi yüksəlir...
Ahəngdar bir hava, yavaş-yavaş titrərkən:
Əmir başqa bir qıza, çəmənlərdə rast gəlir!

Ərğəvani bir qəmgin, gözəl bir pəri,
Uzun kipriklər altı, süzür yoldan gələni.
Sanki qoca əmirə, sorur bayğın nəzərlə,
"Yanındakı gözəli, çox sevirsən, ya məni?"

Əmir gülür... Yanında duran gəlin qızarıb,
Qanlı ala gözlərlə rəqibəsin süzdürür.
Min gözələ bənd olan, sərsəm ərəb əmiri
Bir gözəli dutmadan, bir ahuyi ürküdür!

Yaşıl örtü meşələr, qızıllaşır günəşlə,
Su başları qızlarla, çiçəklənir, güllənir.
Saz nəğməsi ucalır – bir cariə oxuyur,
Onun əks sədası, dağlar içrə səslənir.

Bir qız çıxır pərdədən, yarı çıplaq, zöhrə tək!
Uzun, siyah saçları, həlqələnmiş, burulmuş,
O bir gözəl rəqqasə, bir racənin qızıdır,
Əmir ona vurğunkən, o "özgə"yə vurulmuş!

Saz nəğməsi incəlir, qaval səsi oxşayır,
Gözəllərin könlündə, yatan dərin sevgini.
Piyalələr mey ilə dolub, sonra boşalır,
Saqi şərab verirkən: – Satır "əmir" dinini.

Saqi on dörd yaşında, bir afətdir Ərəbdə,
Şairlərin şeridir, eşqlərin röyası.
Danışarkən sanarsan, onun şirin səsidir,
Gecə bağlar içində, eşidilən su səsi.

Yaşıllanan meşələr, pərdələnin, axşamdır,
Qızlar sərapərdədə, "əmir" bağda tək qalmış.
Quşlar uçmuş bağlardan, sular düşmüş axmaqdan,
Piyalələr qırılıb, sürahilər boşalmış...

Pərdələnin meşələr, pərdələndi xeymələr...
Əmir atlas çadırda, sərməst dalmış uyğuya.
Cariələr hər nəgi, bir qələmin qoynunda,
Gecə olmuş... ulduzlar tökülmüşlər də suya.

YARIN ƏTƏKLƏRİ

Düşüncəli könlüm, yatmaz, dinlərdi,
Gecələrin dərinləşən səslərin...
Ağırlaşan nəzərlərim görərdi...
Suda ayın gümüşlənən əfsərin.

Yarpaqların xışıltısın andıran,
İnək səsi duyulardı çəməndə...
Yabanı gül ətri yolub sarardı...
Küskün yarım kənarıma gələndə.

Necə bir əl gecə şamı söndürür,
Ta görməsin kimsə eşqin pərdəsin.
Gecə dağda söndürərdi Mehtabı,
Susdurardı bağda nəsimin səsin.

Lakin, bu gün o səsləri duyaram,
Yazın sərin nəfəsindən gecələr...
Yenə hər şəb xəyalımın yolunda
Yarın ipək ətəkləri sürünər...

ƏYİL SULAR ÜSTƏ!

Əyil sular üstə, tökülsün kölgən,
Oxşasın kölgəni çeşmənin əli.
Qoy desinlər quşlar: – gülləndi bağça,
O sarışın gözəl bağa gələli.

Əyil həlqələnsin suda işığın,
Ərisin sularda yaqutu rəngin.
Qoy sənin şövqün, sənin şəfəqin:
Küllü izlər açsın bulaqda dərin.

Gəl sönən qürubun kəhrəba rəngi,
Boyasın həyatın ağ pərdəsini.
Qoy dinləsin könlüm, qəmli axşamda
Bağlarda xəzanın son nəğməsini...

Əsatirin gözəl məbudəsi tək,
Öz eşqinlə yandır, macəra könlümü.
O, bayğın baxışla, ay türk gəlini,
Etmə pərişan bu yara könlümü...

O odlu baxışın məni süzürkən
Açılar ruhumda bir üfüq, onda
Eşqin səbahi kimi, gülür uzaqdan
Mavi pərdələrdə səhər əngiz dünya.

Əyil sular üstə... axşam ulduzu!
Seyr et asimanın dərinliyini.
O mavi aləmin ehtizazında,
Qoy zülfün oxşasın sərinliyini.

OXUMA AYEYİ-YAS

Dəhridən etmə şikayət, oxuma ayeyi-yas,
Qoy nəsim dağdan əsib, həm meşə, həm bağ oxusun.
Bir gəraylı çağır! Ey türkədarın mərd balası!
Sənin ahəngin ilə həm dərə, həm dağ oxusun.
Qoy çəmənlikdə salıb köç və çadır qursun oba,
Obanın qızları da eyləsin, otraq oxusun.
Qoy yayılsın obaya, kəndlərə ahəngi-tərəb,
Sahirin mahnıların bəlkə də üşşaq oxusun.
Burax əfsanəni, əsrin oxu aydın kitabın,
Qoy o dünyanı güdən, ənfasü afaq oxusun!

OYANMIŞ

Tarixin əgər dəftərin açsan, görəcəksən,
Hər babı və hər fəsli qızıl qanla boyanmış!
Bir neçə qızıl qübbəli məbəd tikilirkən,
Xalqın evi uçmuş başına, xərməni yanmış.
İnsan ki, həyat fəlsəfəsin anlamaz oldu,
Dünyada, o əfsanəyə, əfsunə inanmış.
Şəhanə saraylarda gecə toy tutulanda,
Bir çox qapılar qəmlə və matəmlə qapanmış.
Gördünmü, sürü içrə gedən qurdu? Amandır!
Bax, quyruğuna, gözlərinə, sanma çobanmış,
Əsrin o qarı dayəsinə söylə ki, bir də!
Artıq demə laylay ki, yatan ellər oyanmış.

DALĞALAR QABARMIŞ

Xatirət dəftərindən

Dalğalar qabarmış, açılmış güllər,
Sübhün havasında, su pərdəsində.
Duyulur fəraqın qəmli ahəngi,
Ağır-ağır uçan quşlar səsində...

Çamlıqlardan əsən ilıq nəsimin
İpək qanadları oxşayır məni.
Onun saf nəfəsi əngin dənizdə,
Suları qabardıb, açır yelkəni.

Üfüqlərdən doğan qızıl günəşin,
Zümrüd sularda ərir kölgəsi,
Gəmi uzaqlaşır, uzaqlaşdıqca...
Sədəfli sahilin kəsilir səsi...

Sədəfli sahillər, yaşıl ormanlar,
Sahildə tək qalan sarışın nigar.
Sular ayırsa da məni sizlərdən,
Min xatirə məni sizlərə bağlar.

Dalğalar qabarmış, sular köpürmüş,
Qırılmış yelkənin ipək qanadı!
Quşlarla bərabər mavi şərqidən,
Gəlirik sənə, ey güllənən bati!

Ey güllənən bati! Saralır rəngin!
Gümüş sahillərin gəlir nəzərə...
Səndən doğan ayın ilk işıqları,
Damla-damla düşür, sular üzərə...

Sular çəkilmişlər, dəniz quşları,
Qumlarda qalan öz ruzusun arar,
Sular çəkilmişsə, kainat susmuş,
Könüldə həsrətlər olurlar bidar...

İŞÇİ

İsti gündə buğda əkdin,
Yoldan keçən karvanlara
Satdın firovun...
Sal daşlardan ehram tikdin,
Bu dünyadan köçər ikən,
Süd gölündə yatsın firovun.
Təxt qayırdın sultanlara,
Olsun bir gün:
Qızın kəniz, oğlun qulam.
Gümüş, altun qəndillərlə,
Məbədləri işıqlatdın.
"On fərmanı" – Tanrı sözün,
Yazsın xaxam...
Zəncir, zindan qayırdın ki,
Yoldaşların zəncirlənsin.
Bağ becərtdin, üzümünü,
Səhər, axşam xanlar yesin!
Ağlamadın!
Yalan sözə inanasan!
Xəncər, qılınc qayırdın ki,
Meydanlarda tökülsün qan.
Kəhriz qazdın ərbab üçün,
Bostanlığın susuz qalsın.
Başmaq tikdin xanımlara,
Özün gəzdin ayaqyalın.

Köçüb getdin Çalusa ki,
Toxuyasan güllü ipək.
Toy-düyündə şah qızına,
Məlikəyə olsun bəzək.
Qara yerin göbəyindən,
Fışqıranda qara altun,
Sən çalışdın gecə-gündüz,
Yəhudilər yandırsınlar,

Ərəblərin yurd-yuvasın.
Qoymadılar, dərs oxuyub,
Aydınlaşıb anlayasan.
Aç gözünü, qardaş, bir bax!
Kələk qurub yolda düşman!
Nə vaxtadək səni qardaş,
Əfsanələr yuxuladacaq?
Dur ayağa!
Qoyma, çöldən əsən yellə
Sönsün ocaq!

YOL VER KEÇİM

Tökülsün suların üzünə,
Ağaclardan qopan yarpaqlar,
Qoy bağçanın, bağın xirməni,
Sovrulsun və olsun tarimar...

Bahar yaşıllığı, bu soyuq,
Qara torpaqlara nə gərək,
Bu çöllərdə bitən tikanlar?
Bəslərmi bağrında gül-çiçək?

İç, dəhrin zəhərli meyindən,
Yansın ciyərlərin, dodağın!
Ölümün həvəskarlı əli qoy,
Qırsın ömrün yaşıl budağın.

Qoy quşlar uçsunlar... Səsləmə!
Mərmuz ölkələrə gedəni...
Yol ver keçim, gözəl!.. Axşamdır,
.xşamdır... saxlama sən məni...

SON GECƏ

Ay işığı öpür suları... Sular,
Soyuq bir gülüşlə uzaqlaşırlar.
Gecənin sükutun yırtan nəğmələr,
Dağları ağladan, daşqın dərələr,
Çağırır fənaya uğrayanları...
Hürküdür quşları, çalayanları...
Öz sevgilisindən ayrı düşən bir
Bayquş ağaclıqlarda fəryad edir...
Çinarlardan qopan quru budaqlar,
Qumlarda çağlayan, duru bulaqlar,
Titrədir zülmətin dalğalarını,
Açır həyatın bütün əsrarını...

Sükuta alışqan, məhzun könlüm,
Sərməst, dinlərkən sərt baxışlı ölüm,
Qara dumanlara bürünən qul tək,
Uzadır mənə bir zəhərli çiçək!..

İçirdir şükran ilə dolu cam,
Necə ki, içmişdi zavallı anam...
Gecə yarısıdır, çırağım sönür,
Başım ağrıyır, ürəyim döyünür.

Göy və yer başıma dönür... dönür mən,
Hələ kainatın səsin dinlərkən:
Baxıram uzaqdan gələn bir qıza,
Üfüqlərə sarı axan yıldıza...

ŞERİN DİLİ

Qızıl, gümüş, ipək xalça, daş ayna,
Bir tacirə yetər, onu şad edər.
Bir rahibdən sual etsən, cənnətdən
Verər sənə gözəl-gözəl xəbərlər!..
O, şübhəsiz, öz sözünə inanmaz,
Bu dünyanın gözəlliyin dananmaz.

O, həqiqi şairikən, şairi,
Dəli sanar, şerə nəzər eləməz.
Eşitməzsə sağər dünya nəğməsin,
Kor da onun gözəlliyin biləməz.
Başqa bir göz, başqa duyğu gərək ta,
Gözəlliyin rəngi ola Hüveyda...

Bir siyasi nəzər qılmaz, gecəylən,
Olurkən ay meşələrdə nümayan,
Ay işığı, günəş aydınlatmaz heç,
Onun tutqun göylərini heç zaman,
Filosoflar şeri ilham sayarlar,
Həqiqətin nəğməsini duyarlar!

Lakin şerin ilahəsi bir qadın,
Bəyəndiyi ancaq məxmər, ipəkdir,
Ona almaz, qızıl küpə, al örpək,
Bir də dəli bir sevdaşı gərəkdir!

Şer yalnız odlananlar üçündür,
Şerin dili atəşindir, dərindir...

YURDUMUZ

Səhər oldu, gün hər yerə yayılır,
Qurdlar, quşlar əkinlərdə ayılır.
Kölgə düşür pərdə-pərdə yollara,
Axar suda, daşlar, qumlar sayılır.

Yapraq-yapraq gəzir qızıl işıqlar,
Al işıqlar – quşlar uçur biqərar,
Hər işıqda ovuc-ovuc ulduzlar,
Hər işıqda dərin, gizli bir sirr var.

Çiraq kimi lalələrdir odlanan,
Lalələrin üzərində qızıl qan.
Yer üzünün cənnətidir yurdumuz,
Unut göyü, bizim yerdə gəl dolan.

MÜNDƏRİCAT

Ön söz 4

Söylə Tanrı 15
Atlıların 16
Yurd mahnısı 17
Səhəndə sarı 18
Arazın suyu 19
Məndən salam deyin gözəl Təbrizə! 20
Sürgün 21
Məktəb xatirələri 24
Gülmə 28
Gecə keçmiş yarıdan 29
Son söz 30
Yoldan kənar 31
Kənd mahnıları 32
Nərgiz 33
Sevgilim 37
Payızın ilk günləri 39
Qafqaz yollarında 40
1945-ci ildə 41
Bir toxusu qıza 42
Başqın 43
Axşam çağıdır 44
Zamanın sirri 45
Sazaq əsdi 47
Xəzanlar 48
Arzu 50
Həyatdır axar çəşmə 51
Azərbaycanın gənc yazıçısı Namurad Fridun İbrahimiyə 53
Qorxma! 55
Qovala düşmanları! 56
Vətənin matəmində 57
Qanlı payız 59
Şair Şəhriyara 60
Həyatın yükü ağırdır, ağır 61
Uğuldayır dəli yellər 63
Şair Süleyman Rüstəmə 64
Otur evdə 66
Sevgidi 68
Gül dəməti 69

Payız 70
Qış 71
Yaz 72
Yay 73
Çini fincan 74
Ciğatı 75
Yurd mahnısı 77
Tərəhhata inanma! 79
Nə anladıq? 80
Gözəl 81
Qar yağıb üstümə 82
İnqilab 83
Bağdagül 85
Batbat yeyən uşaqlar 86
Qurbanlıq 87
Qaraçılar 88
Şerin səsi 90
Kimlərdir? 91
Gecənin səsi 92
Səhənd dağı 93
Axşam kölgələri 94
Bir Qulamın günahı 95
Mahnılar 97
Park 102
Şirazli Şair Xoca Hafiz 104
Yəzidin Sarayı 107
Mürşid 109
Dəmirlinin ətəyində 111
Oyan, ey sevgilim! 112
Muğanda quraqlıq 113
Maksim Qorkiyə 116
Bizim məhlə 117
Bayatılar 118
Keçən günlər 122
Bir ərəb sarayıdır 123
Kəndimizdə olub keçənlər 125
Keçən xatirələr 128
Kəndimizdən qovulanlar 131
Yolçu 135
Kimlər sevinir 138
Nədən 141
Bir al günəş doğdu səhər 142

"Sazımın sözü" şairinə 144
Son söz, son saz 149
Zənci 150
Həyatda ümid 153
Tehranın yay gecələrində 154
Yağmasan da gurulda 155
Kabus 157
Suda işıqlar 158
Poema 159
Nil çayı mənzuməsindən parçalar 164
Anəmlə bərabər 167
Ey Qəmər 168
Kölgələnən qızıl dağlar 169
Anam üçün 170
Ayın kölgəsi 171
Gecələrin nəğməsi 172
Arzu 173
Qrizantım gülləri 174
Çöl çiçəyi 175
Meşələrin qoynunda 176
Yarın ətəkləri 178
Əyil sular üstə! 179
Oxuma ayeyi-yas 180
Oyanmış 181
Dalğalar qabarmiş 182
İşçi 183
Yol ver keçim 285
Son geçə 286
Şerin dili 287
Yurdumuz 288

Buraxılışa məsul: *Əziz Gülaliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Emil Məmmədov*

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 02.08.2004. Çapa imzalanmışdır 13.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 12. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 22.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.